

## Tom Kuper: “Ermənistanın siyasəti şovinist xəyallara bənzəyir”

14

# Dini-mədəniyyət abidələrimizə yeni həyat verilir

SƏS
№ 029 (6470) 16 fevral 2022-ci il. Qiyməti 60 qəpik

İlham Əliyev: "Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri əsaslı təmir edilir"



2

# Sülhməramlı, yoxsa başqa məramlı?



8

44 günlük müharibəni Azərbaycan Vətən müharibəsi adlandırır. Çünki Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilər minlərlə Azərbaycan oğullarının qanı bahasına azad edildi. Vətənimizin bir parçası yağı düşməndən, erməni vandalizmindən xilas oldu. Bu müharibədə vətənə xəyanət edənlərə, cinayət əməli törədənlərə, qanunsuz silah və silahlı...



7

## Sosial şəbəkələrə dövlət nəzarət edəcək?

Bildiyiniz kimi, son dövrlərdə sosial şəbəkələrdə özbaşınalıq hallarının sayı durmadan artmaqdadır. Bəzi ekspertlərin fikirlərinə görə, bu kimi halların qarşısının alınması üçün sosial şəbəkələrə dövlət nəzarət etməli və eyni zamanda, etik normaları və istifadəçi qaydalarını pozan şəxslərə müəyyən cəzalar tətbiq olunmalıdır. Mözvu ilə əlaqədar...

## Futbolumuzun bərbad durumu: xərclənən pullar hara gedir?



## Qanunsuz erməni silahlı dəstə üzvlərinin apardığı mühəndis işlərinin qarşısı alınıb

Fevralın 15-i günorta saatlarında Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən kənd təsərrüfatı işləri adı altında səngərin mühəndis cəhətdən hazırlanması məqsədilə qazıntıların aparılması tərəfimizdən müşahidə edilib. Trend xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin...

7

## Abramoviç bir gündə 778 milyon avro itirdi!

16



”Çelsi”nin sahibi, rusiyalı milyarder Roman Abramoviç Ukraynadakı vəziyyətə görə bir gündə təxminən 778 milyon avro itirib. Bu barədə ”The Sun” nəşri məlumat yayıb. Xəbərdə deyilir ki, London...



## Hulusi Kılıç: “Azərbaycan və Türkiyə dünyadan “Xocalıya ədalət!” tələbini davam etdirməlidir”

3

Xocalı soyqırımı müasir dünyanın gözü qarşısında törədilən insanlığın üz qarasıdır. Otuz ildə acımız...



## Yay aylarına qədər normal həyata qayıda bilərik?

9

Yay aylarına qədər bütün lazımi tədbirləri görsək, peyvəndlənmə faizlərini artırsaq, daha normal həyata qayıtmağımız...

# Dini-mədəniyyət abidələrimizə yeni həyat verilir

## *İlham Əliyev:*

## *"Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri əsaslı təmir edilir"*



**Ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, xalqımıza məxsus dini-mədəniyyət abidələrini dağıtmış olsalar da, bu abidələr, xarabazarlığa çevrilmiş yerlər yenidən bərpa olunur, onlara yeni həyat bəxş edilir. Görülən işlər hazırlanmış layihələr, şəhərlərin baş planı əsasında sistemli olaraq reallaşır. Hər qarışında tariximizin izi olan bu ərazilərdə böyük bir xalqın izi, imzası vardır. 30 ilə yaxın işğal altında olan ərazilərimizdə sürətlə aparılan abadlıq və quruculuq işləri burada yeni müasir məkanlarımız olacağından xəbər verir. Əlbəttə ki, bu ərazilərdən erməni vandallarını izlərin silib atsaq da tariximizə, yaddaşımızda onların törətdikləri çirkin əməlləri silinməyəcək.**



İşğaldan azad olunan ərazilərimizdə yeni yolların çəkilməsi, yaşayış evlərin tikintisi və s. ilə yanaşı, din-tarixi abidələrimizə də yeni həyat verilir. Bildiyimiz kimi, artıq Şuşada üç məsciddə təmir-bərpa işləri aparılır. Bu məscidlərin təmiri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Şuşada olan 17 bulağın 17-si də qurudulmuşdur və artıq Natəvan bulağı bərpa edilib. Ermənilər tərəfindən güllələbaran edilmiş Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri artıq öz isti nəfəsli torpağındadır. Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu. Bülbülün evinin açılışı oldu. Azad edilmiş ərazilərdə ümumilikdə 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Prezident İlham Əliyev Ağdam rayonuna səfəri zamanı çıxışında bildirdiyi kimi, "Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlamışdır. Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu, bizim borcumuzdur. Bunu biz edirik. Vətən qarşısında bu borcu şərəflə yerinə yetiririk. Necə ki, Vətən müharibəsində Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi, düşməni doğma torpaqlarımızdan qovdu. Beləliklə, Azərbaycan ərazi bütövlüyünü bərpa etdi".

Xatırladaq ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir. Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Ağdam rayonunun işğaldan azad olunması münasibətilə xalqa müraciətində bildirdiyi kimi, Bir Cümə məscidinin qalıqları qalıb. Onu da Mən demişəm, onlar iki məqsəd üçün saxlamışdılar. Bir məqsəd o torpağa bağlı olan bir işarə idi. Yəni, artilleriya atəşinin tənzimlənməsi üçün lazım idi bu məntəqə, bu obyekt. İkinci məqsəd müşahidə məntəqəsi idi. Məscidin minarələrindən onlar müşahidə edirdilər: "Cümə məscidinin qalıqlarından başqa, bir dənə də salamat bina yoxdur. Bunu hansısa yad planetli, necə deyərlər, ünsürlər törətməyiblər. Bunu bizim qonşumuz olan, bizim çörəyimizi yeyən, bizim torpağımızda özünə yuva salan, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan ermənilər törədiblər. Bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra törədildi. Bu, ikinci müharibə dövründə törədilən dağıntılar deyil. Bizim bütün maddi sərvətimiz məqsədyönlü şəkildə dağıdıldı, talan edildi. Tarixi-dini abidələrimiz söküldü".



Cümə məscidinin bərpa-restavrasiyasına Heydər Əliyev Fondu tərəfindən başlanılıb. Layihənin icrası üçün Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti ilə müqavilə imzalanıb. Məscid əvvəlcə taxta dam örtüyü ilə örtülüb, kərpic günbəzlər damın altında havadan və küləkdən qorunub. İlkin mərhələdə damın bütün landşaftı son biogen artımından azad ediləcək, qübbələr üzərində qırılan hörgü birləşmələri və gips örtükləri çıxarılacaq. Konservasiya zamanı çatışmayan, zəifləmiş və ya qeyri-sabit hörgü və tonoz konstruksiyaları yenilənəcək və ya birləşdiriləcək. Bərpa işləri bütövlükdə tarixi görünüşə uyğun olaraq həyata keçiriləcək. Görülən işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı çıxış zamanı bildirdiyi kimi, "biz tarixi, dini abidələrimizi də bərpa edirik. Mənə bu gün verilən məlumata görə, Ağdam Cümə məscidinin bərpa işlərinə başlanılır. Artıq bütün tədqiqatlar aparılıb və mart ayından başlayaraq məscidin həm daxilində, həm çöl hissəsində təmir-bərpa işlərinə start veriləcək".

### "ERMƏNİLƏR NƏİNKİ AZƏRBAYCAN XALQINI, BÜTÜN MÜSƏLMAN ALƏMİNİ TƏHQİR EDİBLƏR"

"Mən müharibədən sonra Ağdama 3-cü dəfədir ki, səfər edirəm. Hər dəfə buraya gələndə ürəyim ağrıyır" - deyən Prezident bildirib ki, Ağdamda bir dənə də olsun salamat bina yoxdur: "Təkcə bu yarıdağılmış məsciddir ki, onun da dam örtüyü zədələnmişdir. Bu məscid ermənilər tərəfindən təhqir edilib, burada inəklər, donuzlar saxlanılıb. Ermənilər nəinki Azərbaycan xalqını, bütün müsəlman aləmini təhqir ediblər. Ağdam şəhərində, Ağdam rayonunda bu yarıdağılmış məsciddən başqa bir dənə də bina ayaq üstə deyil. Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində də oldular. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və xanımına kompleksdə görülməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verdi.



Qeyd edək ki, XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, Pənahəli xanın imarəti də adlandırılıb. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Buradan tövlə kimi istifadə olunub. Qarabağ xanları Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xan Cavanşirin, eləcə də onların ailə üzvlərinin - Xan qızı, şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın, şair və ictimai xadim Cəfərqulu xan Cavanşirin, xeyriyyəçi, Şuşada Aşağı və Yuxarı Gövhərağa məscidlərini tikdirmiş Gövhərnisə bəyimin, şairə, "Məclisi-üns"ün iştirakçılarından olmuş Xanbikə xanımın qəbirləri burada yerləşir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalıb.

Görülən işlər və reallaşacaq tədbirlər onu deməyə əsas verir ki, qısa bir zamanda Ağdam müasir bir şəhərə çevriləcək, tarixi dini-mədəniyyət abidələrimiz təmir və bərpa olunacaq və Ağdam sakinləri firavan və rahat bir həyatla təmin olunacaqlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Misirin və Gürcüstanın aparıcı KİV-ləri Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfərindən yazırlar

**Misirin "Asia Əl Yom" agentliyinin saytında və "Əl Masriyə" portalında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olmaları barədə xəbər yayımlanıb.**

AZƏRTAC-a istinadla hazırlanan xəbərdə qeyd olunub ki, dövlətimizin başçısına və xanımına kompleksdə görülməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verilib. Misirli oxucuların diqqətinə çatdırılıb ki, XVIII əsrə aid və iki binadan ibarət olan bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, Pənahəli xanın imarəti də adlandırılıb.

Xəbərdə vurğulanıb ki, işğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb, buradan tövlə kimi istifadə olunub.









الرئيس إلهام علييف والسيدة الأولى يزوران قصر وأضرحة أمراء قره باغ

14 فبراير، 2022

كتب- أبوبكر أبوالمجد

Materialda diqqətə çatdırılıb ki, Qarabağ xanları Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xan Cavanşirin, eləcə də onların ailə üzvlərinin - Xan qızı, şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın, şair və ictimai xadim Cəfərqulu xan Cavanşirin, xeyriyyəçi, Şuşada Aşağı və Yuxarı Gövhərağa məscidlərini tikdirmiş Gövhərnisə bəyimin, şairə, "Məclisi-üns"ün iştirakçılarından olmuş Xanbikə xanımın qəbirləri burada yerləşir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalıb.




Bundan başqa, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri Gürcüstan KİV-in diqqət mərkəzində olub. Belə ki, "24news.ge", "aktual.ge", "interpress.ge" informasiya portalları Azərbaycan Prezidentinin Ağdama səfəri və Ağdam Cümə məscidində söylədiyi fikirlərdən xəbərlər paylaşıblar.

Azərbaycan və gürcü dillərində yayılan xəbərlərdə Ağdam Cümə məscidində aparılacaq təmir-bərpa işləri, işğaldan azad olunmuş torpaqlarda həyata keçirilən quruculuq işləri və ermənilərlə bağlı sülh müqaviləsi barədə fikirləri əksini tapıb.

# "Azərbaycana investisiya axını artmaqdadır"

"Cənab Prezident müsahibəsində bir sıra önəmli məsələlərə toxundu. Qeyd etdi ki, xarici şirkətlər Azərbaycanın uğurlu gələcəyinə inanırlar. Prezidentin bu fikri ilə tamamilə razıyam. Ümumiyyətlə, xarici investorlar hər hansı bir ölkəyə yatırım etməzdən öncə bir neçə mötəbər təşkilatların reytinqlərinə baxırlar. Bunlardan biri də "Doing business"dir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Asif İbrahimov deyib.

Onun sözlərinə görə, "Doing business" ölkələrin reytinqlərini açıqlayır: "Bunlardan biri də dünya bankının reytinqidir. Dünya bankı tərəfindən ölkələrin qiymətləndirilməsi həyata keçirilir. Həmin reytinqə görə, Azərbaycan son bir neçə il ərzində 32 pillə irəliləyərək investisiya yatırmaq üçün münbit bir ölkə olduğunu sübut etdi. Ümumiyyətlə, Azərbaycanın milli iqtisadiyyatının inkişafını 3 mərhələyə bölmək olar: birinci dövr 1994-cü ilə qədər olan mərhələ, ikinci mərhələ "Əsrin müqaviləsi" imzalandıqdan sonrakı mərhələ, üçüncü mərhələ isə 2015-ci ildən bu günə qədər olan mərhələdir. Həmin dünya bankının reytinqində ölkələr üzrə qiymətləndirmələr bir çox meyarlar üzrə həyata keçirilir. Həmin ölkələrdə məhkəmə hüquq sisteminin vəziyyəti ilə bağlı məsələlər qiymətləndirmə meyarı olaraq göstərilir. Bu qiymətləndirmə meyarları həyata keçdikdən sonra ölkələrin illik reytinqi dərc olunur. Azərbaycan son illərdə 57-ci yerdən 25-ci yerə qədər yüksəlib. Bu da çox böyük bir layihədir. İldən-ilə də bu reytinqlərin açıqlanmasından sonra Azərbaycana investisiya axını artmaqdadır. Düşünürəm ki, gələcək illərdə də bu halların şahidi olacağıq. Amma bu, təkcə reytinqlərlə aparılan bir proses deyil. Həmin bu işlər Azərbaycanın geo-strateji mövqeyə malik olması, eyni zamanda Vətən müharibəsində yaranmış yeni geo-strateji, iqtisadi reallıqlardan sonra ortaya çıxıb".



***Arzu Qurbanzadə***

# Hulusi Kılıç: "Azərbaycan və Türkiyə dünyadan "Xocalıya ədalət!" tələbini davam etdirməlidir"



Xocalı soyqırımı müasir dünyanın gözü qarşısında törədilən insanlığın üz qarasıdır. Otuz ildə acımız azalmadı. Ötən otuz ildə Leyla Əliyevanın rəhbərliyi ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində böyük işlər görülüb. Lakin təəssüf ki, hələ də dünya ictimaiyyəti "Xocalıya ədalət!" deməyib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri, "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə təmsilçisi Hulusi Kılıç bildirib. Prezident İlham Əliyevin Xocalı soyqırımının otuzuncu ildönümü haqqında imzaladığı məlum Sərəncamını xatırladan səfir Hulusi Kılıç deyib ki, Azərbaycan Xocalı soyqırımının intiqamını 44 günlük Vətən müharibəsində mərdi-mərdanə döyüş meydanında alıb. Lakin Azərbaycan və Türkiyə bir yerdə bütün dünyadan "Xocalıya ədalət!" tələbini davam etdirməlidir.



# Prezident hərbi qulluqçuların xidmətlərini daim yüksək qiymətləndirir

**Vətən müharibəsi iştirakçılarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 10 fevral tarixdə imzaladığı Sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, Azərbaycan Respublikasının 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövrdə Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə ön cəbhədə fədakarlıq göstərmiş mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin və dövlətə məxsus digər hüquqi şəxslərin əməkdaşları və mülki işçiləri "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilsinlər. Və "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının Baş nazirinə verilsin.**

## 44 GÜN ƏRZİNDƏ ÖZ ŞÜCAƏTLƏRİ İLƏ İGİD ƏSGƏRLƏRİMİZİN HƏRƏSİ BİR QƏHRƏMANLIQ DASTANI YAZANLARIN ZƏFƏR TƏLTİFLƏRİ

Vətən müharibəmiz şanlı qələbə ilə tariximizin ən parlaq səhifələrinə qızıl hərflərlə həkk olundu. 44 gün ərzində öz şücaətləri ilə igid əsgərlərimizin hərəsi bir qəhrəmanlıq dastanı yazdı. Ana Vətənə canlarını qurban verməkdən belə çəkinmədilər, şəhid, qazi oldular, əzmlə, qürurla, çiyin-çiyinə verərək, biləklərinin haqqı ilə qazandılar bu fəxarətli zəferi.Bəli, Ana Vətənə canlarını qurban verməkdən belə çəkinməyərək şəhid, qazi oldular, zəfər yazdılar. Və 2020-ci il dekabrın 1-də "Vətən Müharibəsində qələbə münasibətilə" Azərbaycan Respublikasının orden və medallarının təsis edildi. Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi də Prezidentin igidlərimizə yüksək ehtiramdır.

**Bu təltiflər Vətən Müharibəsində iştirak edən hərbi qulluqçuların xidmətlərinin Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilməsinin təsdiqidir**

## DÖVLƏTİMİZİN BAŞÇISI BU DƏFƏ DƏ VERDİYİ VƏDƏ SADİQLİYİNİ NÜMAYİŞ ETDİRDİ





Prezident İlham Əliyev siyasi iradəsi, müdrikliyi sayəsində 44 günlük Vətən Müharibəsinin qələbəsi Azərbaycan tarixinə Qalib Xalq ifadəsini yazdırdı. Hərb meydanında igidlik göstərən, vətən torpağını düşməndən qanı, canı bahasına azad edən Azərbaycan bayrağını uca tutan vətən oğullarının bu qələbənin qazanılmasında rolu danılmazdır. Onların hər biri ilə qürurlanır, qarşılarında borcluyuq. Belə igidlik göstərmiş vətən övladları yüksək adlara, mükafatlara, ehtirama layiqdirdir.

Ali Baş Komandan dəfələrlə bildirmişdi ki, Vətən müharibəsində igidlik göstərənlər heç vaxt unudulmayacaqlar. Sentyabrın 30-da Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başladığı hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bu məsələni xüsusi olaraq vurğulayaraq demişdir ki, Azərbaycanda yeni ordenlər və medallar təsis ediləcək. Məhz Vətən müharibəsində fərqlənmiş hərbçilərə və mülki şəxslərə bu orden və medallar veriləcək. Dövlət başçısı, hətta bu orden və medalların adlarını da özü təklif etdiyini bildirmişdi.

## "MƏN BÜTÜN BU 44 GÜN ƏRZİNDƏ, ONDAN ƏVVƏL VƏ ONDAN SONRA DÖYÜŞ MEYDANINDA, ARXA CƏBHƏDƏ QƏHRƏMANLIQ GÖSTƏRMİŞ HƏRBÇİLƏRİMİZİ TƏLTİF EDƏCƏYƏM"

Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev hərbçilərlə görüşü zamanı həmçinin onu da bildirmişdir ki, bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimizi təltif edəcəyəm: "Mən bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimizi təltif edəcəyəm... Mən artıq göstəriş vermişəm və sizin qarşınızda bunu bəyan etmək istəyirəm ki, Azərbaycanda yeni ordenlər və medallar təsis ediləcək. Məhz Vətən müharibəsində fərqlənmiş hərbçilərə və mülki şəxslərə bu orden və medallar veriləcək. Bu orden və medalların adlarını da mən təklif etmişəm. Hesab edirəm ki, bu adlar da sizin xoşunuza, Azərbaycan xalqının xoşuna gələcək".

Qeyd edək ki, müstəqillik dövründə "Rəşadət" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Şücaətə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" medalları təsis olunub və Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsində iştirak etmiş, rayonun və ya şəhərin düşmən işğalından azad olunması ilə nəticələnən döyüş əməliyyatları zamanı hərbi hissə və birləşmələrə yüksək peşəkarlıqla rəhbərlik etmiş və s. fərqlənən şəxslərə verilib. Azərbaycan və Ermənistan cəbhəsində baş verən aprel döyüşləri və ümumiyyətlə. Qarabağ savaşında Azərbaycan sərhədlərinin qorunmasında xidmətlərinə görə zabit, gizir və əsgər heyəti müxtəlif orden və medallarla təltif olunmuşdular. Hazırda Azərbaycanda 10 orden və 64 medal var.

Bu gün isə Azərbaycanda yeni Vətən Müharibəsi ilə bağlı orden və medallar və fəxri ad təsis edilib. Azərbaycan Prezidenti tərəfindən daha 2 orden və 15 medalın təsis edilməsi təklif olunub. Yeni ad isə "Vətən müharibəsi qəhrəmanı" adıdır. Yeni təklif olunan 2 ordendən biri "Zəfər", digəri isə "Qarabağ" ordenidir. Medallara gəlincə isə, "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Vətən müharibəsi iştirakçısı" medalı, "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" və s.

Bəli, bu gün Prezident İlham Əliyev indiyədək verdiyi bütün vədləri layiqincə yerinə yetirib. Dövlətimizin başçısı bu dəfə də verdiyi vədə sadiqliyini nümayiş etdirdi. Vətən müharibəsi iştirakçılarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 10 fevral tarixdə imzaladığı yeni Sərəncamı bunun təsdiqidir.

Bütün bunlar Vətən Müharibəsində iştirak edən hərbi qulluqçuların xidmətlərinin Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilməsinin təsdiqidir. Bu, həm də hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Dövlət başçımızın dediyi kimi: "Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq".

***RƏFİQƏ HÜSEYNOVA***

# Bir gecədə məhv olmuş şəhər

Azərbaycan xalqının genetik yaddaşında, tariximizdə yer almış Xocalı soyqırımından artıq 30 ilə yaxın zaman ötür. Zaman baxımından uzun müddət olmasa da, insanların yaşadığı böyük faciə sanki onlara bir əsrin ağrısını yaşatmış oldu. Soyqırım etnik, irqi, dini və ya milli qrupun düşünülmüş və sistematik şəkildə tam və ya qismən məhv edilməsi olduğundan ermənilərin törətdikləri Xocalı soyqırımı da məhz bu məqsədi daşıyırdı. Bütün tarixi dövrlərdə soyqırım bəşəriyyətin amansız böyük itkisi sayılıb. Beynəlxalq hüquq normalarına görə, soyqırım törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür. Ermənilərin azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinin tarixi əsrləri əhatə edir. Odur ki, ermənilər törətdikləri cinayətə görə, beynəlxalq trubunalardan mühakimə olunmalı və iç üzləri dünya ictimaiyyətinə təqdim edilməlidir. Tarixin dönəmlərində baş verən olaylara nəzər salsaq, görərik ki, Azərbaycanın başına gətirilənlərdən erəmənilər hələ də dərs almayıblar. Ötən əsrdə dörd dəfə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1989-cu illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və deportasiya siyasəti onların çirkin niyyətini təsdiqləyir. 1918-ci ilin 30 mart-3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, həmçinin Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın tariximizdən silinməyəcək. Rəsmi mənbələrə görə 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür. Mənbələrdə göstərilir ki, həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman, 1925-ci ildə Bakı hadisələri haqqında belə yazmışdır: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər". Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır. Mart qırğını haqqında olan mənbələrdə göstərilir ki, ermənilər bir çox qədim binaları, o cümlədən Cümə məscidini, İsmailiyyə binasını top atəşinə tutaraq dağıtmışlar. Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi foto şəkillər də tarixçilərin yazdıqlarını əyani şəkildə təsdiqləyir. Onların çoxunun meyitləri tapılmamışdır. Hadisənin şahidlərinin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər. Azərbaycan Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırım Günü kimi qeyd olunur.



## XOCALIDA TÖRƏDİLƏN ƏMƏLLƏR BMT-NİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİNƏ, ÜMUMBƏŞƏRİ DƏYƏRLƏRƏ TAMAMİLƏ ZİDDİR

Xocalı soyqırımı xarakter etibarı ilə beynəlxalq cinayət kateqoriyasına aiddir. Qabaqcadan xüsusi düzəldilmiş pusqulardan qaçıb canını qurtarmaq istəyən Xocalı sakinlərinin avtomat, pulemyot və digər silahlardan atəşə tutularaq kütləvi şəkildə qətlə yetirilməsi ermənilərin azərbaycanlılara qarşı soyqırım niyyətini sübuta yetirən amillərdir. 1992-ci ilin 26 fevral qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən işğal edildi. Xocalı bir gecənin içərisində yerlə yeksan olundu. Beləliklə, soyuq və qarlı fevral gecəsində minlərlə dinc sakin girov götürüldü. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində, Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Xocalıda törədilən əməllər BMT-nin məqsəd və vəzifələrinə, ümumbəşəri dəyərlərə tamamilə ziddir.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz ədalətli hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

## SÜLH VƏ BƏŞƏRİYYƏT ƏLEYHİNƏ YÖNƏLƏN ƏMƏL

Azərbaycan öz haqq səsini ucaldır və dünya ictimaiyyətini hadisələrlə düzgün məlumatlandırır. Heydər Əliyev Fondunun dəstəyi ilə artıq neçə illərdir ki, "Xocalıya ədalət" kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində soyqırımına həsr olunmuş silsilə tədbirlər keçirilir. Dünya ictimaiyyətinə Xocalı soyqırımı haqqında obyektiv və dürüst informasiya çatdırmağa, ictimai rəyi formalaşdırmağa yönələn tədbirlər müxtəlif qurumların, diplomatik missiyaların nümayəndələri, şəhər sakinləri, eləcə də xarici kütləvi informasiya vasitələrinin əməkdaşlarının iştirakı ilə keçirilir. Braziliyada, Londonda, Koreyada və onlarla dünya ölkələrində Azərbaycan həqiqətləri müxtəlif şəkildə təqdim edilib. Bütün bunlarla yanaşı, Koreya dilində Xocalı soyqırımı haqqında videoçarx hazırlanaraq, ən böyük axtarış saytı olan "Naver", eləcə də "Google" və "Youtube"da yerləşdirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində "Müharibə cinayətinin Xocalı şahidi. Ermənistan müttəhim kürsüsündə" adlı kitab da çapdan çıxıb.

Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də, ABŞ-ın 20-dən artıq ştatının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul ediblər. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1951-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Belə ki, bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayətdir.

*Zümrüd BAYRAMOVA*

# Ərdoğan Dubayda Azərbaycan pavilyonunu ziyarət edib

**Birləşmiş Ərəb Əmirliklərində rəsmi səfəri çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Dubayda keçirilən ”Expo-2020” sərgisində Azərbaycan pavilyonunu ziyarət edib.**

Trend xəbər verir ki, ziyarət zamanı Türkiyə Prezidenti Xalq artisti Alim Qasımov və qızı Fərqanə Qasımovanın ifasında Azərbaycan mahnılarını dinləyib. Daha sonra Türkiyə dövlət başçısı pavilyonda görülmüş hazırlıq işləri ilə tanış olub.

Qeyd edək ki, Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) keçirilən ”Expo 2020 Dubai” beynəlxalq sərgisində Heydər Əliyev Mərkəzinin təşkil etdiyi Azərbaycan pavilyonu da təqdim edilir. Sərgi bu ilin martın 31-dək davam edəcək. Azərbaycan sərgidə ”Gələcəyin toxumları” mövzusu ilə təmsil olunur. Pavilyonun konsepsiyası dəyişikliyin subyekti və obyekti, təşəbbüskarı və əsas aparıcı qüvvəsi olan insan kapitalını əks etdirir. Pavilyonda installyasiya, audio və video materialların vasitəsilə ölkəmizin landşaftının müxtəlifliyi sərgilənir.



# Uğursuz cəhdlər - NÖVBƏTİ FİASKO

**Ötən həftə Fransa prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan dövlət başçısı cənab İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüş Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair ətraflı müzakirələrlə yadda qalıb. Bu görüş 2021-ci il 14 dekabr tarixində Brüsseldə keçirilmiş birgə görüşdəki sülh gündəliyinin davamı olaraq xarakterizə edilir və ən maraqlı məqam Fransa prezidentinin, ermənipərəst Makronun Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində aktivliyidir.**

İlk baxışdan elə bir təəssürat yaranırdı ki, Makron Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasında guya maraqlıdır. Doğrudur, görüşün gedişatı və nəticələri də bunu göstərir, amma bu görüşün ardınca baş verən hadisələr, baş tutan daha bir görüş təsdiq edir ki, Fransa prezidentinin bütün səylərinin arxasında yenə də erməni maraqlarının təmin olunması dayanır. Emmanuel Makronun hər zaman Ermənistanın maraqlarından çıxış etməsi fonunda onun Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına maraqlı olması əslində, çoxlu sayda şübhələr doğururdu və az bir müddət keçdikdən sonra bu şübhələrin yerində olduğu özünü göstərdi. Yəni, bu görüşün ardınca Fransa prezidentinin Moskvaya yollanması, Rusiya prezidenti Vladimir Putinlə görüşə can atması, görüş zamanı da Ermənistanla bağlı məsələləri müzakirə etməsi şübhələrin əsaslı olduğunu sübut edir.

Xatırladığımız kimi, Azərbaycan dövlət başçısı cənab İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüşdə ölkəmizin maraqlarını təmin edən müzakirələr oldu. Xüsusilə, Ermənistan və Azərbaycan arasında münasibətlərin müxtəlif aspektləri, humanitar məsələlər, etimad quruculuğu, ermənilərin basdırdıqları minalarla bağlı Azərbaycanın üzləşdiyi problemlər, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası, demarkasiyası, eləcə də sülh sazişi üzrə danışıqların başlanmasının vacibliyi müzakirə edildi. Ölkə rəhbəri, cənab Prezident İlham Əliyev də Azərbaycanın mövqeyini görüş iştirakçılarının diqqətinə çatdırdı və Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyi, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi istiqamətində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması məsələsini xüsusilə vurğuladı. Bu məsələlərin müzakirəsi zamanı kimsə, xüsusilə Makron Azərbaycanın mövqeyinə qarşı gəlmədi və birgə bəyanat da bunu təsdiqləyir. Məsələ burasındadır ki, görünür həmin görüş zamanı səsini çıxarmayan Fransa prezidentinin qısa bir müddət sonra səsi çıxacaqmış.



Bilirik ki, bir neçə gün bundan öncə Fransa prezidenti Makron Rusiyada səfərdə olub və onun prezident Putinlə görüşü düz 5 saat davam edib. Onu da yaxşı bilirik ki, Makron bu dəfə də Ermənistan-Azərbaycan münasibətlərini müzakirə edib və maraqlıdır, bundan əvvəlki görüşün ardınca bir daha belə bir müzakirə Fransa prezidentinin nəyinə lazım idi? Makronun bu qədər aktivlik göstərməsi, Ermənistan-Azərbaycan münasibətlərinə belə ”can yandırması” nəyə görədir? Əslində, Fransa prezidentinin Rusiyaya səfərinin Ukrayna ilə bağlı olduğunu hər kəs düşünürdü və belə düşünməkdə də elə hər kəs haqlı idi, çünki, əvvəla Rusiyanın özünün Qərb ilə münasibətdə Ukrayna kimi problemi var, digər tərəfdən də Ermənistan-Azərbaycan münasibətlərinin müzakirəsi qısa müddət öncə müzakirə edilmişdi axı. Yəni, buna indi nə ehtiyac duyulurdu ki, Makron hövlnak Rusiyaya səfər edib məramını ortaya qoydu?

Əslində, 44 günlük Vətən müharibəsi dövründə də, müharibədən sonrakı dönəmdə də Makronun necə ermənipərəst mövqe sərgilədiyini hər kəs yaxşı bilir. Onun dəqiqləşdirilməmiş məlumatlara istinad edərək, özü də qərəzli şəkildə Azərbaycana qarşı bəyanatlar verməsi də yaddan çıxan deyil. Yaxşı bəs bütün bunların fonunda Makronun bundan öncə videoformatda keçirilən görüşdə mövqeyi nə idi, indiki mövqeyi nədir? Ümumiyyətlə, bu adamın fikri nədir? Fransa kimi bir Avropa ölkəsinin prezidenti gündə bir ağıla qulluq edir, yoxsa bunun pərdə arxasında nələrsə var? Sözsüz ki, bir Avropa ölkəsinin prezidenti təsadüfən gedeib Rusiyaya çıxmamışdı və Putindən ötrü darıxdığı üçün onunla görüşməmürdü. Heç Ermənistan-Azərbaycan münasibətərinin müzakirəsi ilə bağlı dedikləri də qəflətən yadına düşmüş mövzu deyildi, onun öz məqsədi, öz məramı var idi.

Sözsüz ki, Fransanın Avropa İttifaqına sədrlik etməsi Makrona müəyyən ümidlər verib və çox güman ki, o geosiyasi proseslərdə aktivlik nümayiş etdirmək arzusuna düşüb. Fransa prezidenti görünür siyasi birincilik uğrunda Avropada gedən mübarizədə qalib olmaq niyyətindədir və məqamından istifadə edərək, Fransanın rolunu Avropa İttifaqında artırmaq arzusundadır. Bütün bunlar Fransa prezidentinin qəflətən Rusiyaya getməsində özünü göstərir. Qərb indi Rusiyanı hədəfə aldığı bir vaxtda Rusiyaya səfər etmək, orada Ukrayna məsələsi ilə yanaşı, həm də Ermənistan-Azərbaycan münasibətlərini müzakirə etmək təsadüfi deyil və bu bir növ nümayişkəranə xarakter daşıyır.

Digər tərəfdən onu da bilirik ki, Fransa ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsidir. Məhz həmsədr ölkə kimi, Ermənistan-Azərbaycan arasında bir zaman mövcud olan, amma indi mövcud olmayan Qarabağ problemi ilə əlaqədar boynuna bir zaman düşən vəzifələr yoxsa indi yadına düşüb Makronun? Bəlkə Fransanın Cənubi Qafqazdakı mövqelərini də gücləndirmək arzusundadır? Yox, bu artıq mümkün deyil, çünki nə Qarabağ problemi var, nə onun həllinə, nə də Fransanın, xüsusən də ermənipərəstliyi ilə dərhal seçilən Makronun iştirakına ehtiyac duyulmur. Belə olan halda, yəni bunun gün kimi aydın olduğu bir məqamda Makronun niyyəti nə ola bilərdi, yenə də məsələni müzakirə etməkdə? Təbii ki, öz müqəddəratı və seçkilərdə qələbə qazanmaq arzusu. Bilirik ki, Fransada seçkilər gözlənilir və Makron da bu seçkilərdə qələbə qazanmaq üçün ermənilərin dəstəyinə ehtiyac duyur. Ən azından Fransada çox güclü olan erməni lobbisinin əks təsirindən qorxur, ehtiyatlanır. Bir növ, Cənubi Qafqazla bağlı niyyətinin dəryada balıq sevdası olmasını bilə-bilə bunu edir ki, ermənilərin necə deyərlər, ”könlünü görsün”, razılığını əldə etsin. Amma güman ki, bunu ermənilrə də yaxşı başa düşürlər və indi 44 günlük müharibədən uduzaraq çıxan hərhansı ”yaralı” ermənının yadına Makron düşmür. Bu baxımdan onun cəhdləri elə bəri başdan fiaskoya uğramış kimi sayıla bilər.

Növbəti dəfə Makron uğursuzluqla qarşılaşdı deməkdə haqlıyıq. Çünki, Fransa prezidenti heç də Moskvada arzuolunan, yaxud ”gözlənilən qonaq” kimi qarşılanmadı. Çox güman ki, Cənubi Qafqazda Türkiyənin mövqeyinin güclənməsindən, Rusiya-Türkiyə münasibətlərinin günügündən yaxşılaşmasından, Türkiyənin həm bölgədə, həm də bütün dünyada söz sahibi olmasından qıcıqlanan Fransa prezidenti Rusiya prezidenti Putinlə görüşüb estafeti əlinə almaq arzusuna da düşüb. Lakin, Vladimir Putinin onu çox soyuq qarşılaması, təsdiq edir ki, Rusiya prezidenti daha çox Türkiyə ilə münasibətlərə üstünlük verir və burada Makronun ”canfeşanlığı” heç nəyə yarayan deyil. Yəni, Putin öz münasibəti ilə göstərdi ki, hazırki mövqeyindən dönən deyil. Bu isə onu deməyə imkan verir ki, əvvəla Fransa prezidentinin öz geosiyasi aktivlik barədə arzuları puça çıxıb, digər tərəfdən isə erməni maraqlarından çıxış etməsi tamamilə nəticəsiz qalıb. Bir sözlə, Makronun bütün cəhdləri fiaskoya uğrayıb.

***İnam Hacıyev***

# Sosial şəbəkələrə dövlət nəzarət edəcək




**Bildiyiniz kimi son dövrlərdə sosial şəbəkələrdə öz başınalıq hallarının sayı durmadan artmaqdadır. Bəzi ekspertlərin fikirlərinə görə bu kimi halların qarşısının alınması üçün sosial şəbəkələrə dövlət nəzarət etməli və eyni zamanda etik normaları və istifadəçi qaydalarını pozan şəxslərə müəyyən cəzalar tətbiq olunmalıdır. Mözvu ilə əlaqədar olaraq SİA-a paytaxt sakinləri arasında sorğu keçirib. Görək, onlar bu məsələ barədə nələr düşünürlər?**

**Şəhər sakini Heydər Rüstəmli:** ”Məncə, belə bir qərar verilməlidir. Çünki sosial şəbəkələrdə insanlar



qanun pozuntularına və tərbiyəsizliyə yol verirlər. Bunun qarşısını almaq üçün dövlət ciddi şəkildə nəzarət etməlidir. Eyni zamanda kimsə hər hansısa bir qanun pozuntusuna yol verərsə, ona müəyyən cəzalar verilməlidir. Əgər belə cəzalar tətbiq olunarsa digərləri başqalarından ibrət götürərək belə səhvlərə yol verməzlər”.

**Şəhər sakini Elxan Əfəndiyev:** ”Düşünürəm ki, sosial şəbəkələrə nəzarət nə çox güclü olmalıdır, nə də ki, çox boş buraxılmalıdır. Yəni normal qaydada riyaət olunsa kifayətdir. Çünki çox ciddi nəzarət olduğu hal-



da artıq insanlar öz normal fikirlərini belə deməkdən qorxacaqlar. Eyni zamanda da, insanların sosial şəbəkələrdə qeyri-etik ifadələrdən istifadə edirlər, bax bunun qarşısı alınmalıdır”.

**Şəhər sakini Əşrəf Yəhyayev:** ”Elə zənn edirəm ki, sosial şəbəkələrin dövlət nəzarətinə verilməsi çox



absurd bir hadisə olar. Çünki onsuz da, dövlət internet platformalarına nəzarət edir və edəcək. Ona görə bunu açıq və aydın şəkildə elan etməyə ehtiyac yoxdur”.

**Şəhər sakini Mirzə Mirzəyev:** ”Sosial şəbəkələrə dövlətin nəzarət etməsi, bir növ insanların fikir azadlıqlarının əlindən alınması deməkdir. Çünki insanların özünün müstəqil internet hesabları var. Onlar burada öz istədikləri fikirləri və fotoları pay-



laşırlar. Artıq bu kimi platformalar dövlət nəzarətinə keçsə, biz bu kimi paylaşımları edə bilməyəciyik”.

**Şəhər sakini Rafiq Hacılı:** ”Mənə görə belə bir qərar qəbul olunmamalıdır. Çünki bütün dünya dövlətlərində sosial şəbəkələr azad bir platformalardır və onlara heç bir dövlət nəzarəti olunmur. Düşünürəm ki,



bizdə də, belə bir şey olmasa çox yaxşı olar”.

**Şəhər sakini Leyla Fətəliyeva:** ”Sosial şəbəkələrin dövlət nəzarətinə verilsə çox yaxşı olar. Bildiyiniz



kimi sosial şəbəkələrdə insanlar bir-birinə qeyri-etik sözlərdən istifadə edirlər. Həmçinin sosial şəbəkələr üzərindən insna alveri edirlər. Bunların hər biri xoşa gəlməz bir haldır. Ona görə də, düşünürəm ki, sosial şəbəkələrə ciddi nəarət olunsa, bu kimi məsələlər aradan qalxar”.

**Şəhər sakini Əlikram Xankişiyev:** ”Bəzi ümummilli məsələlər var ki, həmin mövzular internetdə paylaşıldığı zaman dövlət buna nəzarət etməlidir. Eyni zamanda müxalif yönümlü çıxışlar, məsələlər, dezinfor-



masiylar internetdə yayımlandığı halda bu kimi halllar dövlət tərəfindən qarşısı alınmalıdır. Lakin mən öz şəxsi həyatımla bağlı hər hansısa bir paylaşım edib, izləyicilərimlə bölüşürəmsə buna heç bir məhdudiyyət qoyulmamalıdır”.

**Şəhər sakini Şəlalə Şeydayeva:** ” Düşünürəm ki, bir çox məsələlərlə yanaşı bir insanın saxta profil aça bilməsinə icazə verilməməlidir. Bilirsiz ki, belə profillər ”fake” hesab-



lar adlanır. Fikrimcə, dövlət bu kimi məsələlərə önəm verməli və qarşısı alınmalıdır. Lakin kimsə fikir bildiribsə, təbii ki, normal və etik çərçivələr içərisində olan bir düşüncədən söhbət gedir. Həmin fikirlər və rəylərin qarşısı alınmamalıdır”.

***Banuçiçək Hüseynli***



# Milli Məclisin plenar iclası keçirilib

**Milli Məclis Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq ”Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Qanuna dəyişiklikləri birinci oxunuşda təsdiq edib. Belə ki, qanun layihəsi parlamentin yaz sessiyasının fevralın15-də keçirilən iclasının gündəliyinə daxil edilib.**

Dəyişikliklərə əsasən qanunun Silahlı Qüvvələrin əmlakı və maddi-texniki təminatı ilə bağlı 9.6-cı maddəsində ”Silahlı Qüvvələrin dinc, real təhdid, səfərbərlik və müharibə (silahlı münaqişə)” sözləri ”Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda dinc və müharibə (silahlı münaqişə)” sözləri ilə, ”tələbat” sözü ”təminat” sözü ilə əvəz edilir. Qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev ”Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, Saziş 2021-ci il sentyabrın 28-də Ankara şəhərində imzalanıb. Sənəd Azərbaycanla Türkiyə arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, idxal və ixrac olunan qida məhsullarının təhlükəsizliyinin təmin olunması və qida sektorunda ticarət əlaqələrinin mövcud potensialının artırılması məqsədi daşıyır.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Sazişlə bağlı komitənin müsbət rəyini bildirib. Deputat Əli Məsimli təqdim olunan sənədin əhəmiyyəti barədə öz qeyd və təkliflərini açıqlayıb. Qanun layihəsi səsə qoyularaq bir oxunuşa qəbul edilib.

Bundan başqa, Milli Məclis Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən ”Azərbaycan Respublikası Hökuməti ilə İspaniya Krallığı Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında” Sazişin təsdiq olunması ilə bağlı qanun layihəsini qəbul edib. İki ölkə arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında saziş 2021-ci il dekabrın 14-də Madrid şəhərində imzalanıb. Qanun layihəsi səsvermədən sonra bir oxunuşda qəbul edilib.

# Qanunsuz erməni silahlı dəstə üzvlərinin apardığı mühəndis işlərinin qarşısı alınıb



**Fevralın 15-i günorta saatlarında Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən kənd təsərrüfatı işləri adı altında səngərin mühəndis cəhətdən hazırlanması məqsədilə qazıntıların aparılması tərəfimizdən müşahidə edilib.**

Trend xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin məlumatında deyilir. ”Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlərin qarşısı dərhal alınıb”, - məlumatda qeyd edilib.

# Sülhməramlı, yoxsa başqa məramlı?

44 günlük müharibəni Azərbaycan Vətən müharibəsi adlandırır. Çünki Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilər minlərlə Azərbaycan oğullarının qanı bahasına azad edildi. Vətənimizin bir parçası yağı düşməndən, erməni vandalizmindən xilas oldu. Bu müharibədə vətənə xəyanət edənlərə, cinayət əməli törədənlərə, qanunsuz silah və silahlı birləşmələrin yaradılması kimi dövlətə xəyanət maddələri ilə ittiham olunanlara, beynəlxalq terrorizmə qarşı antiterror əməliyyatı da var idi. Amma bu müharibənin adı Vətən müharibəsidir.

Dünya erməniləri Çar Rusiyası zəif düşəndə, parçalanma dövrünü yaşayanda xristian qardaşları ilə razılığa gəlib heç vaxt mövcud olmayan və həm də Azərbaycan torpaqlarında Ermənistan adlı qondarma dövlət yaratdılar. Yeni tərtib olunmuş SSRİ adlı və proletariatın, fəhlə sinfinin içindən çıxmış diktatorların hakim olduğu dövlətin 1990-cı illərdə tənəzzülü zamanı isə ermənilər bir az da iştahlanıb yeni torpaqlar ələ keçirməyə qalxdılar və bunu müəyyən dövr üçün bacardılar. Yəni 30 il barbarcasına ələ keçirdikləri Azərbaycan ərazilərini əvvəlcə Ermənistana birləşdirmək üçün guya hüquqi prosedurlar - referendum və bunu parlamentdə ratifikasiya olunması kimi qanunsuz sənədlər hazırlasalar da qondarma qurumu - ”dövləti” - ”Dağlıq Qarabağ” respublikasını nəinki dünya dövlətləri, heç özləri də tanıya bilmədilər. ”Millətçilər” asıb-kəssələr də, dünya ölkələrinə, beynəlxalq təşkilatlara müxtəlif ölçülü, məzmunlu məktublar ünvanlasalar da kimsə onların bu qanunsuzluqlarına şərik olmaq istəmədi.







1990-cı ildən 2018-ci ilə qədər Ermənistanı 3 prezident idarə etdi, hər üçü də Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının qeyri-mümkün olduğunu anlayınca kreslolarını xələflərinə ötürməklə sanki, məsuliyyətdən canlarını qurtarırmış kimi rahat nəfəs aldılar. Bir məsələni də qeyd etmək yerinə düşər ki, Ermənistanın rəhbərləri Azərbaycanla apardıqları danışıqlarda özlərini tərəf kimi yox, vasitəçi, təmsilçi kimi təqdim etməyə çalışırdılar. Danışıqların vaxtını uzatmaq və ölkəmizi bu danışıqlarda dalana dirəmək üçün Qarabağdakı separatçıları münaqişə tərəfi kimi qabağa vermək istəyirdilər. Hətta danışıqlar masasında çıxılmaz duruma düşən kimi bəzi məsələlərin Ermənistanla deyil, ”Dağlıq Qarabağ”la müzakirə olunmasının vacibliyini söyləyərək yaxalarını kənara çəkirdilər. Azərbaycan tərəfi isə kiminlə danışıq apardığının fərqində idi. Qarabağı Azərbaycandan qoparmaq istəyənin də, işğal olunmuş ərazilərdə hərbi xidmət aparan, 600 kilometrdən çox uzunluğu olan təmas xəttində yerləşdirilən müxtəlif növ ağır silahların - təyyarələrin, helikopterin, uzaqvuran topların, raketlərin, 40 mindən çox hərbi qulluqçunun sahibinin də yenə Ermənistan olduğu dəqiq bilirdi. Adını nə qoyursa-qoysun, Ermənistan bu müharibədə tərəf idi. Dağlıq Qarabağda haradan idi bu qədər vəsait ki, milyardlarla dollar qiyməti olan silah-sursat alsın, hərbçi saxlasın, üstəlik də bir dövlətə qarşı müharibə aparsın və 20 faiz torpaq ələ keçirsin? Bu, əlbəttə, tamamilə absurd, ermənilərin yalanı idi.



Tanınmış rusiyalı jurnalist və ictimai xadim Maksim Şevçenkonun dediyi kimi, nüvə başlığı daşımaq qabiliyyəti olan ballistik raket separatçılarda ola bilərdimi? Belə raketləri terrorçulara hansı dövlət satmağa cürət edərdi? Bu onu göstərir ki, müharibə Ermənistan ərazisində getməsə də, tərəf Ermənistan idi. Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmaq istəyənlər erməni lobbisinin puluna və xristian qardaşlığına güvənib bu çirkin oyuna bulaşmışdılar.

Amma həmin mərkəzlər və güclər Azərbaycanın reaksiyasının bu qədər kəskin olacağını, həm hərb, həm də diplomatik meydanda səbrlə, təmkinlə davranacağını, azərbaycanlıların bu qədər monolit olacaqlarını, Ali Baş Komandanın bir çağırışı ilə dəmir yumruq kimi birləşəcəklərini təxmin etməmişdilər. Bu birlik ermənilərin planında, tərtibində nəzərə alınmayan, hesablanmayan ən böyük amil, bizim də üstünlüyümüz idi...

Dünən özünü separatçıların, Qarabağda qalan erməni tör-töküntülərinin "xarici işlər naziri" adlandıran David Babayan adlı bir ikiayaqlı Brüsseldə erməni diasporunun nümayəndələri ilə görüşündə "Qarabağ heç vaxt Azərbaycanın tərkibində olmayacaq" fikrini ərz edib. Əlbəttə bu, erməni riyakarlığınının, nihilizminin növbəti təzahürüdür. Əslində, Babayandan heç kim Azərbaycanın xeyirinə danışacağını da gözləmirdi. Əvvəla, separatçıların "baş diplomatı" Brüsselə heç də "Qarabağdakı ermənilərin dərdinə əlac" qılmağa, digər siyasi məsələləri həll etməyə deyil, yumşaq desək para toplamağa getmişdi. Yoxsa, işğalçı millətin nümayəndəsini, patriot olmayan bir erməni gədəsini Qarabağda hansı qüvvə saxlaya bilər? Əlbəttə pul, xristian dünyasından axan dollar. Ona görə də əziyyət çəkib Babayanın Avropanın göbəyinə səfərini başqa yerə yozmayın, onun dərdi puldur. Arayik onu Brüsselə ona görə göndərib ki, o, burada yaşayan ermənilərdən toplanacaq pulların həqiqətən Qarabağda müəyyən işlərin görülməsi üçün sərf ediləcəyinə inandıra bilsin. Amma avropalı ermənilərin baxışlarında da hiss olunur ki, bundan əvvəlki prezidentlərin, separatlı ələbaşıların onlardan müəyyən adlar altında aldıqları pullar heç də sadə ermənilərin problemlərinin həllinə, sosial layihələrin icrasına yönəldilməyib, əksinə dünyanın müxtəlif meqapolislərində dəbdəbəli restoran və otellərin, qumarxanaların tikintisinə sərf edilib.

David Babayanın səfəri deyəsən məhsuldar olub. Ən azında şəxsi məsələlərinin həlli üçün kifayət qədər para əldə edə bilib. Çünki oradan gələndən sonra yarımçıq və perspektivsiz işlərinin həyata keçməsi üçün yeni üsullara, variantlara əl atıb. Məsələn, "parlamentdə" daşa dirənən bəzi məsələlərin, "qanunlar"ın yenidən müzakiyəyə çıxarılmasını təklif edib. Bu, hansı qanundur, bilirsinizmi? Guya "Azərbaycanın işğal etdiyi ərazilər" məsələsi. Halbuki, Ermənistan hakimiyyəti belə öz torpaqlarını işğaldan azad etdi deyə, Azərbaycana bir kəlmə də etiraz edə bilmir. Çünki Ermənistan, yaxşı-pis, ağ-qara, biz istəsək də, istəməsək də dünya ölkələri tərəfindən tanınan dövlətdir. Onun hər bəyanatı, məsələyə münasibəti bir çərçivə daxilində olmalıdır. Ona görə də rəsmi İrəvan danışıqlarında bu çərçivəni qorumağa çalışır. Və bundan başqa bilir ki, fərqli münasibət, fərqli fikir ona baha başa gələ bilər. Ona görə də Azərbaycanın mənfi reaksiyasından ehtiyat edərək bu müzakirənin separatçılar tərəfindən aparılmasını, üstəlik də Ermənistanın ona dəstək olmasını yolverilməz hesab edir və bunun üçün əlindən gələni edib. Amma separatçılar məsələni yenidən gündəmə gətirir. Təbii ki, qanunsuz qurumun verdiyi qərar da kimsə tərəfindən tanınmayacaq. Məsələ burasındadır ki, separatçılar Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə aparılan layihələrə investisiya qoyan şirkətlərə "xəbərdarlıq" göndərib. Əlbəttə, bu mənzərə kaftar itin hürməyinə bənzəyir. Ö itin kimisə dişləmək imkanı olmadığı kimi, separatçı rejimin çıxardığı qanun da dişsiz olacaq, kağız parçası kimi zibil yeşiyinə atılacaq.

Gələk, Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarına. Üç ölkə arasında imzalanmış bəyannamənin bir bəndinə əsaslanıb Rusiya sülhməramlılarını Qarabağa buraxmışıq ki, uzun müddət işğalçı rejimin,




separatçıların yanlış ideologiyasınının təsiri altına düşmüş zavallı ermənilərin təfəkküründə dəyişiklik edə bilsin, azərbaycanlılarla ermənilərin birgə yaşamaq instinktini oyatsın, iki xalq arasında düşmənçiliyi bitirsin və nəhayət ermənilər Azərbaycanın bayrağı altında və sülh şəraitində bu torpaqlarda yaşaya bilsinlər. Amma "sülməramlılar" nə edir? Əvvəla, ermənilərlə azərbaycanlıların təmas qurmaması üçün min bir hiyləyə əl atır, qorxudur, müstəqillik vəd edir, xristian qardaşlığından dəm vurur. Bu da işə yaramayanda tərəflərdən birini güllə yağışına tutur və ara qarışır, iynənin ucu qədər olan qarşılıqlı etimad da zədələnir. Ermənilərin hələ də bizimlə əlaqə qurmaq cəhdi alınmayıb. Gedəcəkləri, ticarət edəcəkləri yer isə yalnız Ermənistandır. Uzaq yola çıxa bilməyən ermənilər isə rusların əlinə, onların verəcəkləri bir tikə çörəyə möhtacdırlar. Köç yoluna hazırlaşan ermənilər isə kifayət qədərdir. Amma ruslar "xoş gələcək" arzusu ilə miqrasiya edən ermənilərin getmələrinə imkan vermirlər. Çünki rusların "sülhməramlı" missiyası da ermənilərin varlığından asılıdır.

Bu fotolara diqqətlə fikir verin, guya hər ikisi Rusiya sülhməramlısıdır. Amma səraya düzülmüş bu taqımda rusa oxşar bir subyekt varmı? Yoz, əlbəttə. Çünki bu əsgərlər "Rusiya sülhməramlısı" adı altında Qarabağın ermənilər yaşayan hissəsində xidmət keçən "dığa"lardır. Beləliklə, Rusiya öhdəliyinin bütün bəndlərini hələ də pozmaqla məşğuldur. Bəs, Qarabağda erməni hərbçisi olmayacaqdı, bunlar kimdir görəsən? Laçın koridorunda Azərbaycana aid maşınların yoxlanmasında erməni hərbçinin iştirakı isə həyasızlığın, dərəbəyliyin ta kəndisidir. Hələ Ermənistandan Qarabağa hərbçilərin gətirilməsinə rusların göz yummasını demirik. Bu başqa söhbətin mövzusudur.

Hər gün erməni saytları xəbər yayır, Qarabağdan erməni əsgərlərin fotolarını paylaşırlar. Əgər Ermənistandan bura əsgər gətirilmirsə, bəz bunlar kimindir, yoxsa Qarabağda bu qədər əsgərə mütənasib əhali yaşayır? Kiçik hesablama aparaq, erməni, rus və Azərbaycan mənbələrinin rəqəmlərini tutuşdursaq, Qarabağda yaşayan ermənilərin sayı təxminən 25-30 mindir. Hesab etsək ki, əhalinin yarısı - 15 mini qadın, 15 mini isə kişidir. 15 min kişinin də 80 faizinin, yəni 12 mininin yaşı 18-dən aşağı və 60-dan yuxarıdır. Çünki gənclərin əksəriyyəti müxtəlif bəhanələrlə xarici ölkələrə köç ediblər. Yerdə qalır 3 mini. Bu sayın da 30-40 faizi "neqoden", yəni yararsız olsa, yerdə 1600 erməni qala, ya yox. Bəs, bu ermənilər nə vaxta kimi hərbi xidmət keçəcəklər, bir il, iki il, sonra?

Ruslar gedib özünü aldatsa yaxşıdır. Ən doğru addım Qarabağdan qaçan ermənilərin qarşısını kəsməməkdir. Bu, münaqişənin həllini tezləşdirər. Unikal bir düstur var, o da rusların əlindədir: Erməni varsa problem də, sülhməramlı da olacaq, erməni yoxdursa nə sülhməramlı, nə də münaqişə olacaq. Ona görə də, hörmətli Rusiya sülhməramlıları, ermənilərin miqrasiya hüquqlarını pozmayın, açın qəfəsinizin qapısını, buraxın bu binəvaları. Qoyun, gedib başının çarəsini qılsın...

***V.VƏLİYEV***

# "Şuşa ili"

## çərçivəsində yenidənqurma işləri daha sürətlə aparılacaq




"44 günlük Vətən müharibəsində Azərbaycan tarixi qələbə qazanaraq, 30 illik müddətdə işğala məruz qalan torpaqlarımızı işğaldan azad etdi. O cümlədən, işğaldan azad olunduqdan sonra cənab Prezident İlham Əliyev tərəfindən Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan olundu. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Cavid Osmanov bildirib.

Onun sözlərinə görə, 2022-ci ili isə cənab Prezident İlham Əliyev "Şuşa ili" elan edib: "2022-ci ildə əlbəttə Şuşada "Şuşa ili" çərçivəsində geniş miqyaslı yenidənqurma və bərpa işləri daha da sürətli aparılacaq. Eyni zamanda 2022-ci ildə Şuşada müxtəlif yerli və beynəlxalq tədbirlər həyata keçiriləcək. Bu da bir daha həm Şuşanın gözəlliyinin, həm də Şuşa mədəniyyətinin bütün dünyaya tanıdılmasında çox mühim rol oynayacaq. Bir daha bütün dünya ictimaiyyətinə Şuşanın Azərbaycanın tarixi və əzəli torpağı olması göstəriləcək. Eyni zamanda Şuşada keçirilən tədbirlər 2021-ci ildə ölkəmizin Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş "Xarı Bülbül" festivalı bir daha Azərbaycanı dünyada nə qədər multikultural dəyərlərə önəm verdiyini, inkişaf etdiyini və tolerant bir ölkə olduğunu göstərdi. Düşünürəm ki, Şuşada keçiriləcək belə tədbirlər Azərbaycanın bu sahədə də dünyaya nümunə olmasına zəmin yaradacaq".

***Səbinə Hüseynli***



## Yay aylarına qədər normal həyata qayıda bilərik?

**Yay aylarına qədər bütün lazımi tədbirləri görsək, peyvəndlənmə faizlərini artırsaq, daha normal həyata qayıtmağımız mümkün olacaq. Bunu ÜST-ün Azərbaycan üzrə nümayəndəsi Hande Harmancı deyib. O bildirib ki, Azərbaycan hökuməti qərarları epidemioloji şəraiti nəzərə alaraq verir.**

"Bəzi şəxslər pandemiyanın bitdiyini deyir, amma pandemiya bitməyib. Bu vaxta qədər olan pandemiyalar kimi bu da bitəcək. Bu, yalnız qoyulan qaydalara əməl etməklə mümkündür",-deyə H.Harmancı bildirib.

# Vüqar Rəhimzadə:

## "İşğaldan azad edilmiş ərazilərdə görülən işlər düşünülmüş və planlı addımlara əsaslanır"

"Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi Zəfərimizdən sonra işğaldan azad edilmiş torpaqlarımıza səfərləri cari il çərçivəsində də uğurla davam edir. Ötən il bölgələrə edilən 47 səfərin 32-si işğaldan azad edilmiş ərazilərimizə idi. Hər səfər Böyük Qayıdışın daha da yaxınlaşması deməkdir. Səfər çərçivəsində açılışı olan, yaxud təməlqoyma mərasimi keçirilən sosial obyektlərin say tərkibinə diqqət yetirsək xeyli işlərin görüldüyünü böyük əminliklə deyə bilərik. Təkcə fevralın 13-də dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri zamanı açılışında və təməlqoyma mərasimində iştirak etdiyi sosial obyektlərin sayına və mahiyyətinə diqqət yetirək. Dövlət başçısı və birinci xanım "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirak etdilər. Sonra Prezident İlham Əliyev Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək alternativ və bərpa olunan enerji mənbələri ilə qidalanan işıq dirəklərinin, digər qurğuların və Xalça istehsalı müəssisələrinin, "Park Forest Otel Ağdam" mehmanxanasının və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməllərini qoydu. Daha sonra dövlət başçısı və birinci xanım Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində bərpa-restavrasiya işlərinin gedişi ilə tanış oldu və buradan görülən işlər barədə fikirlərini və mesajlarını çatdırdı. Prezidentin bölgələrə səfəri zamanı hər bir çıxışı, verdiyi müsahibələr ümumilikdə görülən işlər fonunda gələcək barədə aydın təsəvvür yaratmaqla yanaşı, işğalçı Ermənistana ünvanlanan mesajlarla da zəngin olur". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə də tanış oldular, Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində oldular: "Prezident işğaldan azad edilmiş ərazilərimizdə təkmil idarəçilik sisteminin yaradılmasını, bu ərazilərin müasir tələblər səviyyəsində bərpasını qarşıya mühüm vəzifə kimi qoyub. Bu ərazilərdə Prezidentin xüsusi nümayəndəliyinin fəaliyyət göstərməsi də işin səmərəliliyinin və keyfiyyətinin artırılmasında əhəmiyyətli rol oynayır. Şəhərlərin Baş planları hazırlanır və ictimaiyyətin müzakirəsinə verilir. Ağdamın Baş planı gələcək barədə aydın təsəvvür yaradır. Bu baxımdan ki, həmin Baş planda şəhərin əvvəlki simasını özünə qaytarmaq üçün müasirliklə qədimliyin sintezinin yaradılmasına xüsusi diqqət yetirilib. Ağdamın yol infrastrukturu yenilənib, təkmilləşib. İşğaldan azad edilmiş ərazilərin malik olduğu potensial imkanlardan səmərəli istifadə etmək üçün zəruri addımlar atılır. Dövlət başçısı İlham Əliyev Ağdam Cümə Məscidinin qarşısından bu çağırışı etdi ki, Azərbaycan investorları işğaldan azad edilmiş ərazilərimizə gəlin, yeni müəssisələrin, iş yerlərinin yaradılmasında fəal iştirak edin. Bu yolla həmin ərazilərin canlandırılması mümkündür. Bu fikir də xüsusi vurğulanır ki, ölkəmizdə sahibkarlığın inkişafı üçün əlverişli biznes mühiti mövcuddur. Sahibkarlar bu imkanlardan istifadə etməklə Azərbaycanın dayanıqlı inkişafına öz töhfələrini verə bilərlər."



Vüqar Rəhimzadə diqqəti dövlət başçısı İlham Əliyevin ötən il Ağdama səfəri zamanı Ağdam Sənaye Parkının, budəfəki səfəri zamanı isə bu kompleksdə iki müəssisənin təməlinin qoyulmasına yönəldərək bildirib ki, ölkəmizdə qeyri-neft sektorunun inkişafı həyata keçirilən iqtisadi siyasətin tərkib hissəsidir: "Yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin tətbiqi - sənaye parklarının və məhəllələrinin yaradılması da xüsusi önəm kəsb edir. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir. Yaxın gələcəkdə Ağdam Sənaye Parkında onlarla müəssisənin işə başlayacağı bildirilir. İşğaldan azad edilmiş ərazilərin qaz, su, elektrik enerjisi ilə bağlı tələbatları tam ödəniləcək. Ağdamda açılışı olan iki yarımstansiyanı nəzərə alsaq hazırda azad edilmiş torpaqlarda yarımstansiyaların sayı 9-a çatıb. "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının fəaliyyəti nəticəsində bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək."

YAP Xətai rayon təşkilatının sədri görülən işlərin fonunda bildirib ki, tarixi Zəfərə imza atdığımız ilk gündən vaxt itirmədən bərpa və quruculuq işlərinə start verilib və nəticələr göz önündədir: "Bütün maliyyə və texniki imkanlarımız, kadr potensialımız səfərbər edildi. Azərbaycan bu ərazilərdə işləri sıfırdan başlayaraq öz maliyyə imkanları hesabına həyata keçirir. Dövlət başçısı İlham Əliyev ilk gündən bildirdi ki, 44 günük İkinci Qarabağ müharibəsində birliyimiz, həmrəyliyimiz sayəsində necə 30 ilin işğalına son qoyub torpaqlarımızı azad etdik, qısa müddətdə də bu ərazilərdə bərpa və quruculuq işlərini başa çatdırıb soydaşlarımızın Böyük Qayıdışına nail olacağıq. Bütün işlərin təməlində düşünülmüş addımlar və onların planlı şəkildə həyata keçirilməsi dayanır."

Vüqar Rəhimzadə quruculuq işləri çərçivəsində tarixi və dini abidələrimizin bərpasının prioritetliyini önə çəkərək Heydər Əliyev Fondunun imkanları hesabına bu istiqamətdə gördüyü işlərdən bəhs edib: "Azad edilmiş torpaqlarda hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlamışdır. Bu, fəaliyyətində milli irsimizin qorunmasına və inkişafına xüsusi diqqət yetirən Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir."

Böyük Qayıdışın yaxınlaşdığını bildirən YAP Xətai rayon təşkilatının sədri artıq Ağdama və Şuşaya avtobus marşrutlarının təşkil edilməsindən danışaraq bildirib ki, hər bir Azərbaycan vətəndaşı bu torpaqları görmək imkanı əldə edir: "Belə səfərlərin təbliğat baxımından da əhəmiyyəti böyükdür. Hər daşı, qayası, küçəsi erməni vəhşiliklərinin şahidi olan bu torpaqlarımızda törədilən vandalizm aktlarını görən hər kəs Azərbaycanın illərdir necə vəhşi ilə üz-üzə dayandığının şahidi olur. Ermənilər məscidlərimizdə donuz saxlamaqla təkcə Azərbaycan xalqını deyil, bütün müsəlman aləmini təhqir ediblər. Amma bu kimi məsələlər gündəmə gətiriləndə dünya yenə də susmağında davam edir. 44 gündə dünyaya ədalət və beynəlxalq hüquq məfhumlarının mövcudluğunu qəbul etdirən Azərbaycan bu prinsiplərə söykənərək ermənilərin indiyədək törətdikləri cinayətlərin öz layiqli cəzasını alacağına nail olacaq. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Ermənistanla Azərbaycan arasında beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə sülh müqaviləsinin imzalanmasının təklif olunması ilə yanaşı, "Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır" çağırışı da özündə bu əminliyi ehtiva edir."

## "Qarabağdakı bərpa işlərində Heydər Əliyev Fondunun rolu olduqca böyükdür"

"Ağdam rayonunda həyata keçirilən quruculuq və bərpa işləri Prezident İlham Əliyevin Böyük Qayıdışı ilə bağlı xalqımızın 30 illik arzularının gerçəkləşdirilməsinin göstəricisidir. İşğaldan azad edilmiş bütün ərazilərimizdə ilk növbədə kommunikasiyaların bərpası və yenidən qurulması layihələri həyata keçirildi ki, bu da birinci mərhələnin ən vacib komponentlərindən biri idi. Yol və nəqliyyat layihələrinin icrası istər ərazilərimizin minalarla çirkləndirilmiş olması baxımından, istərsə də köhnə infrastrukturun tamamilə dağıdılması səbəbilə ən çətin vəzifələrdən biri idi. Qısa müddətdə demək olar ki, azad edilmiş ərazilərimizin böyük bir hissəsində bu işlər çox sürətlə həyata keçirildi. İkinci mərhələ isə enerji layihələrinin icra olunması idi. Bu da özlüyündə mürəkkəb və yenə də təhlükəsizlik məsələləri baxımından olduqca çox diqqət və zaman tələb edən məsələ idi". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, ancaq Azərbaycan qısa müddətdə bu çətinliklərin öhdəsindən gəlməyi bacardı: "Hazırda işğaldan azad edilmiş ərazilərimiz, hər iki iqtisadi rayon, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə elektrik enerjisi təminatı layihələri təkcə bugünkü deyil, eyni zamanda perspektiv tələbatı da nəzərə almaqla elə icra edilib ki, onlar elektrik enerjisi ilə təchizatın uzunmüddətli təminatçısı olacaq. Təkcə son Ağdam səfəri zamanı Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyeva Ağdam və Ağcabədi rayonlarında 110/35/10 kV-luq "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin, Ağcabədi rayonunda isə "Ağcabədi" yarımstansiyasının açılışlarında iştirak etdilər. Bu yarımstansiyalar eyni zamanda ölkəmizin ümumi enerji şəbəkələrinə inteqrasiya edilməklə etibarlı təhcizat üçün mühüm təminatçı olacaqlar. Beləliklə yol və enerji kommunikasiyalarının ən yüksək səviyyədə qurulması Qarabağ iqtisadi rayonunun inkişafı üçün mühüm rol oynayan paralel kommunikasiyalar olacaq. Şübhəsiz ki, yalnız bundan sonra azad edilmiş ərazilərimizdə sənaye kompleksləri və digər iş yerlərinin yaradılmasından danışmaq mümkündür. Artıq bu istiqamətdə də paralel olaraq ardıcıl və sistemli addımlar atılmaqdadır. Ağdam səfəri zamanı Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması hadisəsi gələcək iş yerlərinin yaradılması baxımından mühüm əhəmiyyətli hadisə oldu. Çünki məskunlaşma və böyük qayıdış özlüyündə iş yerlərinin açılması və sosial təminatın əvvəlcədən yaradılmasını tələb edir ki, bu da qayıdış və məskinləşmə problemlərinin həllinə kompleks yanaşmanı şərtləndirir.



Azərbaycan Prezidenti və Birinci vitse-prezidentin Ağdama səfəri zamanı Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması, işğaldan azad olunmuş ərazilərdə səhiyyə infrastrukturunun yaradılması, hazırkı dövrə kimi ölkəmizdə müasir səhiyyə infrastrukturunun qurulması işlərinin tərkib hissəsi kimi işğaldan azad olunmuş ərazilərimizdə də səhiyyə xidmətlərini əlçatan edəcək ki, bu da öz doğma yurdlarında yenidən məskunlaşan vətəndaşlarımız üçün zəruri sosial və tibbi xidmət təminatı olacaq. Ən mühüm məsələlərdən biri isə 30 il işğal altında qalmaqla erməni vandalları tərəfindən dağıdılan və təhqir edilən mədəni irsimizin bərpası məsələsidir ki, bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işləri mühüm əhəmiyyət kəsb edir. Ağdam Cümə məscidi xalqımızın yüzilliklər boyu dini-mənəvi həyatında mühüm rol oynamış dini abidə kimi mənəvi kontekstə olduqca qiymətli abidələrimizdən biridir. Onun bərpa edilməsi eyni zamanda mənəvi dirçəlişimiz və bütövlüyümüzün simvollarından birinin bərpası kimi əhəmiyyətlidir. Ona görə də işğaldan azad olunmuş ərazilərimizdə mədəni və dini abidələrin bərpasında Heydər Əliyev Fondunun rolu olduqca böyükdür və xalqımız tərəfindən çox yüksək qiymətləndirilir. Səfər çərçivəsində Ağdamda yeni yaşayış kompleksinin təməlinin qoyulması isə qısa müddətdə doğma yurd yerlərimizə qayıdacağımızın müjdəsi oldu".



**Uşaqlarımızın, həyat yoldaşımızın, tərəfdaşlarımızın hər zaman yaxşı və ədəbli insan olmasını istəyirik. Yaxşı bəs, kimdir ədəbli insan? Ədəbli insanın xüsusiyyətləri hansılardır? Yaxud biz insanlara necə davranmalıyıq ki, onlar arzu olunan davranışları göstərsinlər? Əxlaq və ədəb nədir?**

# Mədəniyyət qadına, yoxsa kişiyə lazımdır?

"Əxlaq qəlbdə olanın zahiri əksidir. Hər kəs öz davranışları ilə fitrətində gizlənən xüsusiyyət və qabiliyyətləri ortaya qoyur. İnsan davranışını istiqamətləndirən mərkəz ürəkdir. İnsanın dili, əli, gözü, qulağı, ayağı və digər orqanları özbaşına heç bir iş gör-



mür. İnsanın öz iradəsi ilə gördüyü bütün işlər qəlbin (vicdanın) əmri və göstərişi ilə edilir. Görülən hər bir iş qəlbin meylini, məhəbbətini, iradə gücünü, üstünlüklərini və ağıl səviyyəsini göstərir. Həqiqi mömin qəlbini bir olan Allaha bağlamışdır. Onun yeganə məqsədi Allahın razılığıdır. Ləyaqətli insanın bütün əməlləri, namazları, rəftarları, hərəkətləri gözəldir. Onunla bağlı hər şey təmizdir. Onun sevgisi hər şeyi əhatə edir. Ləyaqətli mömininin Uca Allahdan aldığı tərbiyə həyatının hər mərhələsində özünü göstərir. Bu tərbiyədə onun qəzəbi, davası da sevgisi, dostluğu qədər yaxşıdır. Çünki onun qəzəbi Allahadır. İnsanın həqiqi istiqaməti, yetkinliyi dar və çətin məqamlarda özünü büruzə verir. O insanın haqsızlığa qarşı mübarizəsini, davranışını görmədən onun haqqında yaxşı və ya pis deməməlidir.

Ləyaqətli insan özünü müdafiə edərkən düşməninə haqsızlıq etməz. Pis insan səhv etdiyi zaman özünə haqq qazandırmağa çalışır. O, zalım olsa da, özünü zülmə məruz qoyur. Bir alsa, min istəyər. Susacağı yerdə qışqırır. Pis bir insana dost və ya düşmən olmaq çətindir. Onunla heç bir şeyin dadıduzu yoxdur.

Bəziləri zahirən gözəl amma içi boşdur. Bu insanlar insanların gördüklərinə çox əhəmiyyət verirlər, amma işin əsas



hissəsinə etinasız yanaşırlar.

Ədəb əxlaqi davranış nümayiş etdirmək, gözəl əxlaqa malik olmaq deməkdir. Bu, o deməkdir ki, ləyaqətli insanın gördüyü və edəcəkləri ilə bağlı ümumbəşəri əxlaqi dəyərlərə uyğun davranışları var.

Ədəbli bir insanın xüsusiyyətləri hansılardır?

1. Yalan danışmamaq və başqalarına böhtan atmamaq
2. Qeybət etməmək
3. Utanma hissinin olmaması, utancverici işlərdən və başqalarını utandıracaq davranışlardan qaçınmaq
4. Heyvanlara, insanlara və bitkilərə, bir sözlə kainata sevgi və şəfqətlə baxa bilmək
5. Böyüklərə hörmət etməmək
6. Qohumların ziyarətinə laqeyd qalmamaq
7. Başqasının malına, puluna, iffətinə və namusuna tamah salmamaq
8. Öz azadlığını başqalarının azadlığını məhdudlaşdırmayacaq şəkildə yaşamaq
9. Öz yerini bilmək
10. Çox və boş danışmaqdan çəkinmək. Az və yığcam danışmağa üstünlük vermək
11. Qısqanclıq, kin, nifrət və ürək bulanmasından çəkinmək
12. Kobud olmamaq, iki nəfəri incidə-



cək hərəkətlər etməmək
13. Ədalət axtarmaq. Ədalətli olanın tərəfini tutmaq
14. İnsanları narahat etməmək. Küsmüşləri barışdırmağa çalışmaq
15. Düzgün və gözəl olanı söyləmək
16. Gözəl əxlaq sahibi olmaq və başqalarına nümunə olmaq
17. Ləyaqətli adamın da elə bir xüsusiyyəti var ki, o, bunu sadəcə söyləmir, ədəbi davranışında əks etdirir.

SİA məsələ ilə bağlı araşdırma apararaq ekspertlərin, sosioloqların, psixoloqların və din xadimlərinin fikirlərini öyrənib.

Etika Akademiyasının rəhbəri Günel İbrahim: "Əsl xanım olmaq üçün aristokrat ailədə doğulmaq və ya böyük sərvətə sahib olmaq şərt deyil. Mədəni insan olmaq, geniş dünyagörüşünə malik olmaq və istənilən mövzuda danışıq apara bilmək daha çox vacibdir. "Xanım" olmaq ədəbərkanın, yaxşı tərbiyənin, xeyirxahlığın olduğunu göstərmək deməkdir. Nitq şəxsiyyətin əksidir.

Gözəl xanım gözəl zərif



nitqi ilə seçilir. Ədəbsiz sözlər və kobudluğun gözəlliyə mənfi təsirindən danışmağa dəyərmi?!

Başqalarına münasibət daxili gözəlliyin göstəricisidir. Gözəl ruh olmadan heç vaxt gözəl sima olmaz. Başqalarına qarşı mehribanlıq, təvazökarlıq, saflıq, səmimiyyət və dürüstlük qədər heç bir şey xanımı bəzəyə bilməz.

Ağıl və müdriklik, zəka və təhsil isə hər hansı bir almazdan daha yaxşı bəzəyir, saxta xanımlardan dərshal seçir. Təhsil bütün zamanlarda kübar xanımının gözəlliyidir.

Üslub, ədəb və duyarlılıq kübarlığın üç sütunudur.

İctimai yerlərdə sakit danışmağı və davranmağı öyrənməlidir. Kübar xanım yüksək səslə danışmır, yüksək səslə gülmür, həmsöhbətlərlə kübarlığına uyğun gələn layiqli mövzuları müzakirə edə bilir. Ya donlara, ya da bluzlu yubkalara üstünlük verərək klassik geyim tərzinə riayət edir. Bəzən çox dar olmayan şalvar kostyumu geyinir.

*Ardı Səh. 12*

# Mədəniyyət qadına, yoxsa kişiyə lazımdır

Əvvəli səh. 11

Kübar xanımların qüsursuz davranışları var, onlar masa arxasında necə davranmağı, müəyyən həmsöhbətlərlə düzgün danışmağı bilirlər. Belə xanım kitab oxuyur. İntelektual məqalələr oxuyur. Daim şikayət edən xanım kübar görünmür.



İnsanlarla mehriban davranmağa çalışın və qarşılığında siz də eyni şeyi alacaqsınız. Bu, adət halına gətirməli olan nəzakətə doğru ilk addımdır.

Kübarxanım qarderob seçimində əsas qaydalar səliqəlilik və xoş zövqdür. Geyindiyiniz əşyaların qiyməti önəmli deyil. Əsas odur ki, onlar bir-biri ilə ahəngdir və gözə çarpmır. Moda tarixini öyrənmək və jurnallarına abunə olmaq sizə nəyi bəyəndiyinizi anlamağa və öz üslub duyğunuzu inkişaf etdirməyə kömək edəcək.

Saçınızı və manikürünüzü mütləq səliqəli saxlayın: saç və ya dırnaqlar səliqəsiz görünürsə, bu, bütün görünüşü korlayır. Digər əsas qayda uyğunluqdur. Parlaq bir makiyaj ziyafətə, gündəlik ofis üçün , makiyajsız isə idman və dənizkənarı üçün haldır.

Axırıncı pulu bahalı markalı əşyaya xərcləmək lazım deyil. Saxta nüsxə mütləq fərq ediləcək və yaxşı təəssürat yaratmayacaqsınız.

Sərfəli qiymət aralığında şık və keyfiyyətli əşyalar seçmək daha yaxşıdır.

Kübar xanım özündən bir ölçü böyük və ya kiçik paltarda, havaya uyğun olmayan geyinmiş və üsluba uyğun olmayan geyimdə olmur. Əhəmiyyətli bir kübarlıq həmişə qamətinizi, duruşunuzu saxlamaqdır. Duruşunuzu düzəltmək göründüyü qədər çətin deyil. Daimi məşq vacibdir, nəcib xanımı qamətindən asanlıqla tanımaq olar. O, əyilmir, çiyinləri düzəldilmişdir. Amma eyni zamanda, hərəkətlərdə gərginlik, bayağılıq yoxdur. O, zərif və cazibədardır.

Əsl xanım hər zaman sağlamlığının qeydinə qalır. İdmanla məşğul olur, düzgün qidalanır və özünə qulluq edir. Lazım gələrsə, vaxtında mütəxəssislərə baş çəkir.

Qadın özünə qulluq edəndə dərisi mükəmməl görünür. Bundan əlavə, o, xarici görünüşünün güclü və zəif tərəflərini və hansı makiyajın ona uyğun olduğunu və nədən çəkinməli olduğunu bilir.

Tələş, əsəb, stress, tələskənlik bu kübar xanımın kriteriyaları deyildir. Kübar xanım nitq mədəniyyətinə sahibdir. Sözləri düz tələffüz edir, qarışıq dillərdə danışmır, jarqon ifadələri istifadə etmir. Bunun üçün səsli kitab oxumaq vərdişi gərəklidir, söz ehtiyatını artırır..

İş yerinizi nizamlı saxlamaq vərdişini inkişaf etdirin. Bu, işə diqqətinizi cəmləməyi asanlaşdıracaq. Eyni şey mənzilinizə və avtomobilinizə də aiddir. Kübarlıq bir alilikdir, ziyalılıqdır və dəyərlər sadiqlikdir".

**Psixoloq Zeynəb Əyyubova:** "Hər bir xanım öz duruşu, tərzi, həyat fəlsəfəsi ilə seçilməlidir. Mən bir qadın olaraq hər yerdə sakitliyi, ruhumu, həyat tərzimi tənzimləməyi bilməliyəm.



Bir xanım ailəsindən gördüyü ilə qidalanır. Onda buna istinadən kimlik formalaşır. Qadın ilk dərsini ailəsindən alır. Belə bir söz var ki, "doğulduğun ev sənin kimliyindir".

Ümumiyyətlə, ədəbli insan hər bir halda öz nüfuzunu qoruyan, özünə hörmət edən, meyar olaraq istənilən vəziyyətdə özünü öndə tutan insandır".

**Din xadimi Mircəfər Əyyubov:** "Xanımların ədəbli olması belə xarakterizə olunmalıdır ki, xanım və ədəb-ərkan ayrılmaz hissələrdir. Yəni, xanım deyən kimi insanın zehninə incəlik, zəriflik, ədəb-ərkan gəlir. İndi oxucular təəccüblənə bilər ki, "necə yəni kişilər yalnız kobud olur, xanımlar ədəb-ərkanlı?! Bu, nə məntiqdir?! Niyə xanımlar abır-həyaya qısılıb qalmalı, kişilər istədiyini etməlidir?!".

Bunun səbəbi psixolojidir. Cəmiyyətimizdə o qədər qadınlar özlərini kişi kimi aparır ki, cəmiyyətdə kobudluq qadın-kişi tanımadan o qədər rəvac tapıb ki, təəccüblü gəlir.



Bir kişini ədəbsiz təsəvvür etmək asandır. Problem bir qadını ədəbsiz təsəvvür edə bilməkdədir. Bu, olduqca ağırdır. İslam dininə əsasən əxlaq, əxlaqi dəyərlərə riayət olunan yer mədəniyyət yeridir.

Əgər hər qəzəb vaxtı insanın ədəbi əldən gedəcəksə, zatən bu ədəbsizlikdir. Çünki sakit vaxtı hamı ədəblidir. İndiki xanımlar keçmişin xanımlarına tənqidi yanaşırlar ki, onlar öz hüquqlarını müdafiə etmirlər. Halbuki, keçmiş xanımlar başa düşürdülər ki, xanımlıq kişi kimi meydana atılıb mübarizə aparmaqla alınmır. Onda insan qalib gəlir, amma artıq xanım olmur. Yəni, kişi kimi olur".

**Sosioloq Əhməd Qəşəmoğlu:** "O adam, o şəxs, o xalq, o toplum daha mədənidir ki, o öz qarşısına qoyduğu bir məqsəd, göstərdiyi fəaliyyət ətrafda ahəngin artmasına kömək etsin. Əgər onun məqsədi, fəaliyyəti ətrafda ahəngin pozulmasına kömək edirsə ona mədəni demək olmaz. Misal üçün deyək ki, bir nəfər Parisdə yaşayır, çox mədəni sayılır. Birdən iş elə düşdü ki, bizim bir dağ kəndimizə gəldi düşdü. Durub orada elə hərəkət edər ki, bütün ətrafda gərginlik yaranar və yaxud elə bizim kəndlərdə yox, ayrı bir ölkədə ayrı bir ənənəsi, başqa bir adət-ənənəsi olan ölkədə.



Ona görə o adama mədəni insan deyərik ki, o insan fəaliyyəti ilə ətrafında daha çox ahəng yaradır, ahəngin artmasına kömək edir. Daha çox ahəng yaradan daha çox mədənidir. Müəyyən qədər az ahəng yaradan az mədənidir. Bu mənim tamamilə əsaslandırdığım fikirdir.

Xalqımızın adət-ənənəsi var. O adət-ənənə daxilində istər ailədə, istər ətrafında daha çox ahəng yaradan qadın daha çox mədənidir. Deyək ki, bir qadın desin ki, mən Amerikada hansısa bir universitet qurtarmışam, ya Moskvada qurtarmışam. Gəlib bir ailə qurub. Bu ailədə insanları təhqir edir ki, siz geri qalmısız, gerizəkalısız".

***Ayşən Vəli***

# Araik, hazırlaş!

*Yaxud, bu Azərbaycan xalqı üçün gözlənilməz sürpriz olardı!*

Məlum olduğu kimi, Baş Prokurorluğun İstintaq İdarəsinin rəisi Nemət Əvəzov rəsmi şəkildə bəyan edib ki, özünü qondarma respublikasının rəhbəri kimi təqdim edən Araik Arutyunyanın qısa müddətdə istintaqa təqdim olunması təmin ediləcək. Onun sözlərinə görə, istintaq hərəkətləri davam edir və qısa müddət ərzində (!) əməliyyat və kəşfiyyat qurumları tərəfindən onun məhkəmə baxışına çıxarılması təmin ediləcək. Bəlkə də bu bəyanat bir çoxlarına səthi təsir bağışlaya bilər, hətta bəziləri bəyanatın məhz bəyanat xətrinə deyildiyini iddia edə bilərlər. Lakin reallığa qalanda necə deyərlər, bu xna o xnadan deyil...

## Azərbaycan dövlətinin özü-öz gücü və malik olduğu hüquqi addımları sayəsində hərəkətə keçmək qərarını verib

Çünki hazırkı dövrə qədər yalnız Araik Arutyunyan deyil, eləcə də Qarabağ klanından çıxmış, Qarabağda separatçılığın, terrorun əsasını qoymuş, insanlarımızı terrorizə etmiş, eləcə də Qərbi Azərbaycandakı soydaşlarımıza qarşı kütləvi etnik təmizləmələr, qətllər törətmiş Serj Sarqsyan, Robert Koçaryan başda olmaqla onlarla cinayətkar şəxslər barəsində beynəlxalq məhkəmələrə müraciətlər edilib, İnterpol axtarışına verilib. Halbuki, bu şəxslər istədikləri vaxt istədikləri ölkələrə rahat səfərlər edir, özü də onlar barəsində verilən axtarışlara rəğmən! Məhz bunun nəticəsidir ki, artıq Azərbaycan dövlətinin özü-öz gücü və malik olduğu hüquqi addımları sayəsində hərəkətə keçmək qərarını verib.

Yeri gəlmişkən, rəsmi bəyanatda o da xatırladılıb ki, Araik Arutyunyan separatçı-terrorçu rejimin quldurbaşısı olaraq 44 günlük müharibə zamanı Azərbaycanın dinc Gəncə şəhərinə raket zərbələrinin endirilməsi əmrini şəxsən verib və nəticədə mülki insanlarımız - yaşlılar, qadın və uşaqlar öldürülüb, bütöv ailələr məhv olub.

## Araik Arutyunyanın məhz Azərbaycanın ərazilərində əlini-qolunu sallayaraq rahat gəzməsinə son qoyulmalıdır ki...

"Buna görə də Arutyunyan axtarışa verilib və ona qarşı Azərbaycanın Cinayət kodeksinin "Vətənə xəyanət" maddəsi ilə cinayət işi açılıb", deyə bəyanatda vurğulanır.

Əslində, Araikin saxlanılaraq məsuliyyətə cəlb olunması həm də xalqımız üçün böyük sürpriz olardı, hətta el dili ilə desək, ürəklərdən tikan çıxarardı, yaxud qəlblərə az da olsa su səpərdi. Ona görə də bu dəfə daha inamlı və qətiyyətli bəyanatın verilməsi adıçəçilən qatilin həbsinin gerçəyə çevrilməsi mümkünlüyünü artırır. Eyni zamanda, Araik Arutyunyanın məhz Azərbaycanın ərazilərində əlini-qolunu sallayaraq rahat gəzməsinə son qoyulmalıdır ki, bu addım digər separatçı-quldur yığnaqlarına da dərs olsun və onlar öz şələ-şülələrini yığışdıraraq Ermənistana rədd olsunlar. Halbuki, orada da onların məsuliyyətdən yaxa qurtarmaq şansları yoxdur. Əvvəl-axır cinayətkarlar öz cəzalarını almağa məhkumdurlar.

Qaldı ki, prosesin necə aparılacağına, burada da nəticənin necə əldə ediləcəyini ehtimal etmək çətin deyil. Bir daha məqalənin əvvəlinə müraciət edək: Baş Prokurorluğun İstintaq İdarəsinin rəisi xatırladıb ki, istintaq hərəkətləri davam edir və qısa müddət ərzində (!) əməliyyat və kəşfiyyat qurumları tərəfindən onun məhkəmə baxışına çıxarılması təmin ediləcək.

## Bu proses başlamaq mərhələsində deyil, artıq başlayıb!

Diqqət yetirsək qənaətə gələ bilərik ki, bu proses başlamaq mərhələsində deyil, artıq başlayıb. Üstəlik, müvafiq güc strukturlarımızın peşəkar fəaliyyətləri də göz önündədir və xüsusilə, əməliyyat və kəşfiyyat qurumları həmin işi öz icraatlarına götürüblər. Nəzərə alsaq ki, 44 günlük müharibə zamanı Azərbaycanın kəşfiyyat qurumları hansı şücaətlərə imza atıblar, döyüş meydanında və düşmənin arxa cəbhəsində necə zərgər dəqiqlikləri ilə əməliyyatlar həyata keçiriblər, bu zaman bizlər həqiqətən də, qısa zaman kəsiyində Araikin və eyni zamanda, digər separatçı quldurların qolu qandallı Bakıya gətiriləcəklərinə maksimum inana bilərik. Beləliklə, vaxt getdi və bizdən gözləmək qalır. Gözləmək qalır ki, Azərbaycan məhkəməsində qolu qandallı şəkildə işinə baxılmasını gözləyən Araik Arutyunyana "Araik, hazırlaş, sənin növbəndir!" deyiləcək və o da hakim qarşısına çıxarılaraq layiq olduğu cəzasını alacaq, biz bu sürprizə inanırıq!

***Rövşən RƏSULOV***

ANALİTİK + AKTUAL

# Rusiyanın Ukraynaya qarşı ehtiyat planı - separatçıları tanımaq

*Kiyev isə Moskvanın qarşısından geri çəkilmək niyyətində olmadığını nümayiş etdirir*

Rusiyanın Ukrayna ilə bağlı, daha dəqiq desək, Donetsk və Luqanskla bağlı müharibə planlarının hələ ki, realizə etməməsi, daha doğrusu təxirə salması, qonşunların sərhədlərdəki mümkün hücum mövqelərindən geriyə çəkməsi əslində eskalasiya halının kənarlaşdırılması anlamını daşımır. Əslində, Kreml Kiyevə qarşı ambisiyalarını digər vasitələrlə və ehtiyat planlarını işə salması ilə davam etdirməkdədir. Məlum oldu ki, Rusiya Dumasının iclasında prezident Vladimir Putinə müraciət üçün layihə səsə qoyulub və həmin layihədə tanınmayan separatçı Donetsk və Luqansk adlı qondarma qurumlarının rəsmən tanınması məsələsi qaldırılıb. Yəni fakt budur ki, Rusiya Ukraynaya əzələ nümayişi etdirdi və bunun nəticəsiz qalacağını əvvəlcədən bildiyi üçün ehtiyat planını icra etmək qərarını verdi. Həmin plan isə separatçıları tanımaq, bu vasitə ilə Kiyevə təsir imkanlarını yürütməkdir. Amma Kiyev bu təsirə boyun əyəcəkmi?





### Rada Donetsk və Luqanskdakı separatçıları terror təşkilatları kimi tanıdı

Beləliklə, ambisiyalar qalmaqdadır və əlbəttə ki, Ukraynanın da siyasi isteblişmenti həmin addımların atılacağını yaxşı bilirdi və əbəs deyil ki, Radanın növbədənkənar iclasında cavab tədbiri görülüb. Ukrayna parlamenti Donetsk və Luqanskdakı separatçıları terror təşkilatları kimi tanıdı. Bu isə həm də belə deməyə zəmin yaradır ki, özlərini Ukraynanın yanında göstərən Qərb ölkələri də bu qurumları terror təşkilatları kimi tanıyacaqlar və söz yox ki, həmin proses onsuz da Rusiya ilə soyuq münasibətləri daha da dərinləşdirəcək. Habelə, Ukrayna istənilən anda öz hüquqlarından istifadə edərək separatçıların yığıldıqları ərazilərdə anti-terror əməliyyatlarını gerçəkləşdirə bilər.

Daha bir maraqlı məqam budur ki, Ukraynanı silah təchiz edən ABŞ, Böyük Brtitaniya, Kanada və s. kimi ölkələr bu addımlarında yanılmadılar. Onlar sübut etdilər ki, Rusiyanın Ukraynana hərbi müdaxiləsi baş tutardısa NATO ölkələri silahlı qarşıdurmalara qatılmayacaqlar, amma ən müasir silah təchizatlarını davam etdirəcəklər.

Üstəlik, Şərqə doğru genişlənən NATO ABŞ-ın vasitəçiliyi ilə Polşaya, Baltikyanı ölkələrə hətta zirehli texnikalarını belə eşalonlarla daşıya biləcəyini əməli şəkildə sübuta yetirdi. Belə vəziyyətdə Rumıniyanın da Amerika hərbçilərini dəvət etmələri cərəyan edən hadisələrə öz təsirlərini göstərmiş oldu.

### Rusiya Zelenskinin xalqa müraciətindən sonra geri çəkildi, yoxsa Kreml daha bir gizli planını işləyir?



Lakin daa bir maraqlı məqamlardan biri də Ukrayna prezidenti Zelenskinin xalqa müraciəti oldu, üstəlik fevralın 16-nı milli vəhdət günü elan edən prezident eyham vurdu ki, həmin gfün savaş başlaya bilər. Bu müraciət Moskvanı istər-istəməz düşünməyə vadar etdi. Düzdür, ukraynalı iş adamlarının əksəriyyəti, hətta deputatları ölkələrini tərk etsələr də, prezident onları 24 saat içində geri dönmələri tapşırığını verdi. Bu tapşırıq isə həm də belə qənaətə gəlməyə zəmin yaratdı ki, Ukrayna müharibənin başlanması ehtimalına kifayət qədər ciddi yanaşır və Rusiyaya çox ağır müqavimətlərin göstəriləcəyi an məsələsi idi.

### Rusiya xalqı müharibə istəmir

Daha bir fakt budur ki, Kreml Ukrayna ilə sərhədlərə qoşunlarını yığması üçün hərbi büdcəsindən milyonlarla, bəlkə də milyardlara hesablanmış dollar vəsaitlər xərclədi və həmin vəsaitlərin hazırkı məqamda



Rusiya iqtisadiyyatı, əhalisi üçün nə qədər vacib olduğunu nəzərə alsaq Rusiya vətəndaşlarının da savaşı rədd etdiklərini deyə bilərik. Çünki çoxsaylı sanksiyalar içində böhranlı vəziyyət yaşayan Rusiyaya əlavə başağrısı - xalq etirazlarının böyüməsi də gərək deyildi.

Nəticə isə budur ki, vəziyyətin gərgin həddən çıxması görünür, amma onun yenidən əvvəlki vəziyyətinə gəlməyəcəyinə də kimsə zəmanət verə bilməz. Hər halda proseslərin tez-tez dəyişməsi eskalayiyanın sadəcə müvəqqəti aradan qaldırılması mənzərəsini təqdim edir. Mümkündür ki, Kremlin "c", yaxud "d" planları da var və hələlik onları ehtiyatda saxlayır. O cümlədən, təkcə Rusiya Duması ilə Ukrayna Radasının çıxardıqları zidd qərarlara diqqət yetirsək, qarşıdurma halının gündəmdən çıxmadığını da deyə bilərik.

***Rövşən RƏSULOV***

# Su fobiası niyə yaranır?

PSİXOLOQ AÇIQLADI

"Fobia qorxu deməkdir. Davamlı narahatlıq hissi yaradan bir simptomdur. Biz fobianın fərqinə varmırıq, amma fobia adətən qorxunun sürətli başlanmasına səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Könül Əhmədova bildirib. Onun sözlərinə görə, təsir altına düşən şəxs bundan qaçmaq istəsə belə bir sıra problemlər yaşayır: "Fobialar spesifik, sosial, aqrofobiyalar və s. olmaqla müxtəlif qruplara bölünür. Heyvalardan, ətraf mühitdən, qandan, hər hansı bir yol qəzasından yaranan problemlərdir ki, həyatımızı zəpt etməyə başlayır və bizdə qorxunun əlamətlərini göstərməyə başlayır.

Su fobiası hidrofobia və ya atmofobia da adlanır. Alimlərin araşdırmalarına görə, böyüklərin təxminən 45%-i dərin hovuzdan qorxur. Dünya üzrə böyüklərin 65%-i isə açıq sulardan qorxur. Bəs bunun səbəbi nədir? Bunun səbəbi uşaqlıqda su ilə yaşadığı problemlərdən qaynaqlanır. Uşaq vaxtı dənizdə boğulma halı ilə qarşılaşıbsa, sudan çıxa bilməyibsə, bunlardan yaranan ağrılar həmin şəxsə psixoloji olaraq təsir edir və nəticədə bu halların təkrar yaşanacağından qorxur. Həmin hislər uzun illər insanın şüuraltında qalır, inkişaf etməyə başlayır. İstər istəməz həmin şəxslər su ilə təmas qurduqda bu qorxular yenidən ortaya çıxır və güclü çaxnaşmalar yaradır. Yəni su fobiası şəxslərin uşaqlıq zamanı su ilə bağlı aldığı travmalardan qaynaqlanır.



Bəs bunun qarşısı necə alınmalıdır? İlk növbədə peşəkar təlimçilər lazımdır ki, həmin şəxs suyun yanında özünü təhlükəsizlikdə hiss etsin. Suya girərkən yanında birinin olması həmin şəxsin qorxularını azaldır. Bu qorxularının üzərinə düşüb aradan qaldırmaq lazımdır".

***Abutel İlhamqızı***

# "Azərbaycanın əsas investisiyalarını Avropa ölkələri təşkil edir"

**"Azərbaycan Avropa Birliyi ilə 90-ci illərdən enerji sahəsində ciddi lahiyələr həyata keçirir. Son illər ərzində Azərbaycanda böyük investisiyaları nəzərə alsaq ümumi həcminin 80 faizinə yaxınını Avropa ölkələri və Britaniya təşkil edir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Natiq Cəfəli bildirib.**

Onun sözlərinə görə, Cənub Qaz Dəhlizi və Bakı-Tiblisi-Ceyhan lahiyələri Avropa Birliyinin qərb ölkələrinin iqtisadi və siyasi maraqlarını, eyni zamanda Azərbaycanın müstəqilliyini təmin edən əsas lahiyələrdi: "Cənub Qaz Dəhlizinin önəmi ondan ibarətdir ki, tək Azərbaycan qazının yox, eyni zamanda regionda qaz yataqları və resusları olan digər ölkələr də bu lahiyədə çox maraqlıdı. İran, Türkmənistan, İraqın böyükhəcmli qaz yataqları var. Bu ölkələrin gələcəkdə Cənub Qaz dəhlizi lahiyəsinə, "TANAP" və "TAP" lahiyələrinə qoşulması mümkündü. Azərbaycanın özünün resusları elə də böyük deyil. Biz Avropa Birliyini ildə 10-11 milyard kub metr qazla təmin edəcəyik. Avropa Birliyinin ümumi istehlakı 510 milyard kub metrdir. Buna görə də Avropa Birliyi maraqlıdır ki, Cənub Qaz Dəhlizi lahiyəsi genişləndirilsin. Cənub Qaz Dəhlizinin potensial olaraq ildə 35 milyard kub metr qaz nəql etmək imkanı var. Bu artıq böyük həcmdi və Avropa Birliyi üçün həyati əhəmiyyət kəsb edir. Ona görə də Avropa Birliyi ilə Azərbaycan arasında strateji müqavilələrin bağlanması, əməkdaşlığın davam etdirilməsi hər iki tərəfin maraqlarına uyğundur".



***Banuçiçək Hüseynli***

# Tom Kuper:
## “Ermənistanın siyasəti şovinist xəyallara bənzəyir”

**Avstriyalı analitik və hərbi aviasiya tarixçisi Tom Kuperlə ”Caliber.Az”-a qısa müsahibəsində Cənubi Qafqazdakı vəziyyət, Ermənistanın siyasəti ilə bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- Sizcə, Azərbaycanla Ermənistan arasında yeni genişmiqyaslı münaqişənin başlanması mümkündürmü?***

- Güman edirəm. Xarici pul və maraqlardan qaynaqlanan bu qarşıdurmada həddindən artıq şovinizm var, ona görə də Bakı ilə İrəvan arasında münaqişənin yaxın gələcəkdə həll olunacağı real deyil.

***- Rusiya sülhməramlılarının Qarabağa daxil olmasını, onların rolunu və fəaliyyətini necə qiymətləndirirsiniz?***

- Şəxsi fikrimi bildirəcəm. Bu da ondan ibarətdir ki, mən Rusiya sülhməramlılarının Moskvanın icazəsi və zəmanəti olmadan heç nə baş verməyəcəyini göstərmək üçün Qarabağda olduğuna inanıram. Hər şey mütləq Rusiya Federasiyasının maraqlarına cavab verməlidir.

***- 44 günlük müharibə boyu Ermənistan daim Rusiyadan narazılığını bildirib və onu xəyanətdə ittiham edib. Erməni tərəfinin iddiaları nə dərəcədə əsaslıdır?***

- Düzünü desəm, mən onları çox gülməli hesab edirəm. Erməni ittihamlarını müzakirə etmək tamamilə mənasızdır. Erməni siyasəti şovinist xəyalları və arzulu düşüncələri xatırladır və reallıqla heç bir əlaqəsi yoxdur.

***- Ermənistanın məğlubiyyətinin əsas səbəblərini nədə görürsünüz?***

- Çox uzun müddət faktları təhrif edəndə sonradan uydurulmuş mifə inanmağa başlayırsan. Özlərini, xüsusən də Azərbaycandan üstün olduqlarına o qədər inandırdılar ki, sonda onun onlara layiqli cavab verə bilməyəcəyinə, onların öz ərazi bütövlüyü və müstəqilliyi uğrunda mübarizə aparmayacağına inandılar.

***- Avropa İttifaqının Cənubi Qafqazda maraqları nədən ibarətdir?***

- İzah etmək çətindir. Birincisi, Aİ-nin Qafqazda heç bir marağı yoxdur. Aİ ortaq xarici maraqları, məqsədləri, təhlükəsizlik siyasəti və ya hərbi qüvvələri olan siyasi birlik deyil. Ancaq burada bir ”amma” var.

Aİ-nin bütün demokratik ölkələrində siyasi sistem elədir ki, oliqarxiya (yaxud üzv ölkələrin hər birinin cəmiyyətinin ən zəngin insanları) mediaya nəzarət edərək siyasətçilərə öz siyasətini diktə edir. Ona görə də təəccüblü deyil ki, Aİ-yə üzv dövlətlərin uzunmüddətli həll yollarına məhəl qoymadan münaqişələri qızışdırmağa çalışan yerli oliqarxiyaların maraqlarını təmsil edən hökumətlər var- hamısı öz mənfəətləri üçün çalışır.

***Tərcümə - Elçin Bayramlı***

# Cəhənnəmə getmiş utopik “erməni arzuları”...

***...Heyif ki, ”erməni arzusu”, bizdən qaçdı və indi belə görünür ki, yaxın macal üçün bizim nə sağalmaq, nə də iqtisadiyyatda sıçrayış etmək şansımız qalmayıb. Qalsa da,.. balaca bir noxud boyda bir şansımız qalır. Amma bizim elə də uzaqda yox, elə dörd il əvvəlki dönəmimizə baxmaq kifayət edər. Təbii ki, baxsalar ”erməni arzusu”nun nələrə qadir olduğunu, bu ”arzu”nun dünyaya hansı töhfələr vermək istədiyinə şahidlik edə bilərdilər.***



Amma, neyləyək ki, alınmadı.

Gərək ki, ermənilərlə yanaşı başqa xalqlar da xatırlamış olar. Belə ki, dörd il əvvəl Ermənistanda kifayət qədər innovativ ideyalar yaranmışdı. Məsələn bu gün bir çoxları, xüsusən də erməni gəncləri biz ermənilərin ölkəmizdə elektromobillər yaradacağımızı eşidəndə bəlkə də, təəccüblənərdilər. Amma biz bunu reallaşdıra bilərdik. Dünyada heç bir xalqın, mən deyərdim ki, heç fikrindən belə keçirə bilmədiyini ”böyük erməni xalqı” hətta artıq reallaşdırmaq ərəfəsindəydi. Deyim ki, bunun üçün əsas iş yerləri də artıq planlı şəkildə nəzərdə tutulmuşdu.

Məsələn, Ermənistanda hazırlanacaq dünyanın ilk elektromobilləri üçün əsas elektrik mühəndisliyi ”Armelectromash”, kompozit materiallardan hazırlanmış kuzovlar üçün isə ”ErAZ” nəzərdə tutulmuşdu.

Yeri gəlmişkən, onu da deyək ki, biz Ermənistanda perspektivli kompozit materialların istehsalı üçün bütöv bir sənaye yaratmağı da nəzərdə tutmuşduq. Bu isə ölkəmizə metal idxalını kəskin şəkildə azaltmağa imkan verəcəkdi.

Bundan əlavə biz Qarakertdə tamamilə yeni bir daş tökmə zavodu, Sevanda isə şüşə izolyasiya zavodu tikəcəkdik. Daha sonra Vanadzorda keyfiyyətcə metaldan heç də aşağı olmayan kompozit material əldə edəcəkdik. Fəaliyyətlərini dayandırmış ”Nairit” və Vanadzordakı kimya zavodu kimi strateji müəssisələri yenidən işə salacaqdıq.

Deyim ki, həmin ərəfədə hakimiyyətə təzə gələn Nikol Paşinyan da bütün bunların reallaşacağına erməniləri inandıra bilmişdi. Yadınızda olar, Nikol bununla bağlı xaricdəki imkanlı ermənilərə də minnətçi düşmüşdü. Amma...

...Hazırda bu sahələrdəki vəziyyət ümidsiz olmasa da, ancaq etiraf edilməlidir ki, daha da pisdir. Məsələ bundadır ki, bu gün hökumət ölkə iqtisadiyyatında köklü bir dəyişiklik yarada biləcək hər hansı bir plana malik deyil. Hətta vaxtilə bir neçə müəssisənin ”açılışını edib” qırmız lent kəsən Nikol sonradan həmin müəsisələrin fəaliyyətini dayandırdığı barədə də məlumatlı olsa da, amma neyləsin ki, əlindən heç nə gəlmir. Amma...

...Maraqlıdır ki, bu gün özlərindən ”qaçaq saldıqları” ”erməni arzusu”ndan gileyli olan ermənilər bunun günahını özlərində yox, həmişə olduğu kimi, yenə də kənarda axtarırlar. O da maraqlıdır, görən, ”erməni arzusu”nun reallaşmasına nə mane oldu?

Təbii ki, ermənilər özlərinin təcavüzkar niyyətlərini yox, 44 günlük müharibəni göstərirlər. Özü də, onlar üçün nə qədər acınacaqlı olsa da onlar ”böyük erməni xalqını” müharibədə məğlub kimi görmürlər.

”Uduzduqlarını”, sadəcə olaraq,.. ”bəzi general və zabitlər arasında dövləti hər şeydən uca tutan erməni hərbçilərinin ”həlálik” az olması və onların özlərini yardımçı ifaçılar kimi göstərmələri ilə əlaqələndirirlər”.

Qeyd edilməlidir ki, əla tapıntıdır. Belə başa düşülür ki, ermənilər bundan sonra ”dövləti hər şeydən uca tutan erməni əsgərləri” hazırlamağa girişəcəklər.

...Bu arada yeri gəlmişkən, Sizi bilmirəm, amma şəxsən mən ”erməni arzusu”nun nə vaxtsa reallaşıb, Ermənistanı iqtisadi cəhətdən inkişaf etdirib harasa aparacağına elə də inanmıram. Niyə, çünki bu ölkə hələ Sovetlər dönəmində də, 15 müttəfiq respublikalar arsında bütün göstəricilərinə görə həmişə 14-cü olub.

***Ağasəf Babayev***



# Keçinin buynuzu qaşınır, qarşıdan isə yaz gəlir...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

**Məlum olduğu kimi, Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti nəzarətləri altındakı Qarabağ bölgələrində qalan separatçı tör-töküntüləri növbəti təxribatçı addım atmağa hazırlaşırlar. Onlar bu dəfə beynəlxalq aləmin Azərbaycanın birmənalı olaraq əraziləri kimi tanıdığı və 44 günlük müharibə zamanı erməni işğalından azad edilən torpaqlarımızla bağlı sərsəm ”qanun layihəsini” qəbul etməyə hazırlaşır. Söz yox ki, tanınmayan qondarma qurumun qəbul elədiyi hər hansı bir ”qərarın” hüquqi qüvvəyə minməsi ümumiyyətlə, mümkün deyil. Lakin bununla yanaşı, bənzər təxribatçı əməllərin davamlı xarakter alması artıq bizim ictimai rəyimizdə ”bıçağın sümüyə dirənməsi” kimi də qiymətləndirilə bilər. Yəni fakt budur ki, separatçı tör-töküntüləri heç də öz bəd, qan qoxusu gələn niyyətlərindən geri çəkilmək fikrində-filanında deyillər və buna görə də yaradılan problemlərin, məhz güc yolu ilə həll olunması mümkünlüyü getgedə artır.**

Yeri gəlmişkən, daha bir fakt budur ki, artıq Qarabağ separatçıları ilə Ermənistan hakimiyyəti arasında dərin uçurumlar yaranmağa başlayıb. Hətta ara-sıra erməni ictimai rəyində Qarabağdan imtina xarakterli fikirlər də eşidilir. O cümlədən, bənzər olaylar Ermənistanın hakim strukturlarında da müşahidə edilməkdədir. Misal üçün, SİA xəbər verir ki, Ermənistanın ”Hraparak” qəzetinin yazdığına görə, Ermənistan hakimiyyəti qeyd edilən ”layihənin” qəbul olunmaması üçün bütün mümkün vasitələrdən istifadə edir. Bu fikir həm də məqalənin sərlövhəsinə də çıxarılıb. SİTAT: ”Belə bir məlumatlar var ki, Ermənistan hakimiyyəti Azərbaycandan göstəriləbiləcək neqativ reaksiya səbəbindən müzakirəni iflasa uğratmaq üçün bütün imkanlarından istifadə edir. Lakin bizim Qarabağdakı mənbələrimiz bəyan edirlər ki, bu prosesdən imtina etməyəcəklər və ”parlament qanun layihəsini” qəbul edəcək (dırnaqlar bizimdir-R.)

Sözügedən ”qanun layihəsində” isə gülünc və sözün əsl mənasında, sərsəm iddialar yer alıb. Belə ki, guya Qarabağın işğaldan azad olunmuş bölgələrində fəaliyyət göstərən beynəlxalq şirkətlər və təşkilatlar erməni tərəfinin icazəsi olmadan (?) investisiya proqramlarında iştirak edərlərsə, onların bu addımı gələcəkdə həmin şirkətlər ”kompensasiya” almalarında problemlərlə üzləşəcəkmişlər. Yəni fakt budur ki, separatçı yığnağının sözügedən ”layihələri” həm də ona ”əsaslandırılır” ki, sən demə, nə zamanda separatçılar tərəfindən başladılacaq ”növbəti müharibədə” (?) işğaldan azad edilmiş Azərbaycan torpaqlarında xarici şirkətlər tərəfindən inşa edilən sosial və s. infrastrukturlar dağıdılarsa, ermənilər qalib gələcəkləri halda” həmin şirkətlərə ”kompensasiya” ödəməyəcəklərmiş. Bu da azmış kimi, separatçılar həmin ərazilərin adlarını da çəkiblər - Laçın, Goranboy, Xocavənd, Ağdərə, Hadrut, Şuşa, Əsgəran, Göy-göl. Yəni bu, ac toyuğun yuxusunda darı görməsinin real mənzərəsidir!

Beləliklə, kifayət qədər gülünc və sözün əsl mənasında, axmaq iddia yalnız belə məxluqlara aid ola bilər. Çünki dünyanın heç bir ölkəsində bənzər ”düşüncəli” məxluqlarmı deyək, yaradıqlarmı deyək, yoxdur və ola da bilməz...

Burada isə atalarımızın daha bir misalını xatırlatmalıyıq - keçinin buynuzu qaşınanda onu çobanın çomağına sürtər. Yəni keçinin buynuzu qaşınmağa davam edərsə, əvvəl-axır qırılmalıdır. Qarşıdan isə yaz gəlir...

# Qubernator:

## "Azərbaycan Stavropol məhsullarını idxal edən ölkələrin reytinqində birincidir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*



Azərbaycanın Rusiyanın regionları ilə əməkdaşlığı bu gün iki ölkə arasında ticarət-iqtisadi və sosial-mədəni əlaqələrin prioritet istiqamətlərindən biridir. Rusiyanın regionlarından nümayəndə heyətləri Azərbaycana getdikcə daha fəal səfər edir, onun əməkdaşlıq üçün ən zəngin iqtisadi potensialı ilə tanış olurlar. Rusiyanın bir çox regionlarında bu əlaqələr tarixən inkişaf edib və bu gün onlar yeni qarşılıqlı fəaliyyət sahələri əldə edirlər. Məsələn, Stavropol diyarı ilə. Son illər Azərbaycan Stavropol məhsullarını idxal edən ölkələrin reytinqində 1-ci yerdədir. "Səs" qəzeti xəbər verir ki, bu barədə Stavropol diyarının qubernatoru Vladimir Vladimirov "Moskva-Bakı" portalına müsahibəsində danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.





***- Vladimir Vladimiroviç, bu gün Stavropol diyarı ilə Azərbaycan Respublikası arasında iqtisadiyyat, mədəniyyət və turizm sahəsində əməkdaşlıq necə inkişaf edir?***

- Regionumuzun Azərbaycanla çoxdan iqtisadi, mədəni və sadəcə dostluq əlaqələri var. Bu əlaqələr onilliklərə, əsrlərə dayanır. Təəccüblü deyil. Qonşularımızla birlikdə biz böyük Qafqaz regionunun bir hissəsiyik. Keçmişdə bizi birləşdirən çox şey var. İndi isə biz fəal əməkdaşlıq edirik, gələcəyi yaradırıq.

İndi bizim Azərbaycanla iqtisadi əlaqələrimiz ilk növbədə ticarət əlaqələri üzərində qurulub. 2021-ci ilin 9 ayı ərzində xarici ticarət dövriyyəsi 115 milyon ABŞ dollarından çox olub. Üstəlik, son illərdə Stavropol məhsullarını idxal edən ölkələrin reytinqində 1-ci yerdə olan Azərbaycandır.

Əməkdaşlığın gücləndirilməsi üçün mühüm sahə turizmin inkişafıdır. Azərbaycan vətəndaşlarının bir neçə nəsli üçün Stavropol diyarının Qafqaz mineral suları kurortları məşhur sevimli istirahət məkanıdır. Bu gün bu, Azərbaycan biznesinin gözündə regionun cəlbediciliyində mühüm amildir.

2016-cı ildə Yessentukidə 400 yerlik "İstoçnik" sanatoriyası istifadəyə verilib. Layihə Azərbaycandan olan investorun 1,5 milyard rubl məbləğində şəxsi vəsaiti hesabına həyata keçirilib. Ötən il Jeleznovodskda "İstoçnik" sanatoriyasının tikintisi başa çatdırılıb. İnvestisiyaların həcmi təxminən 2 milyard rubl təşkil edir.

Hava nəqliyyatı turizm sənayesi üçün xüsusi əhəmiyyət kəsb edir. 2021-ci ildə Rusiyanın "Azimut" aviaşirkəti tərəfindən həyata keçirilən Mineralnıye Vodı-Bakı-Mineralnıye Vodı marşrutu üzrə birbaşa reys açılıb.

Stavropol diyarı ilə Azərbaycanın rayonlarını qardaşlıq əlaqələri birləşdirir. Bu günə kimi Nevinnomıssk və Sumqayıt, Yesssentuki və Naftalan, Kislovodsk və Qəbələ qardaşlaşmış şəhərlərə çevriliblər.




Başqa təmas nöqtələri də var, əminəm ki, gələcəkdə onların sayı daha da artacaq. Biz humanitar və iqtisadi sahədə əməkdaşlığı genişləndirməyə şad olarıq, bunun üçün ilkin şərtlər var.

***- Pandemiya dövründə Azərbaycanla səhiyyə sahəsində əməkdaşlıq varmı?***

- Stavropol, bir çox digər bölgələr kimi, 2020-ci ildə başlayan koronavirus pandemiyasının nəticələrini tam hiss etdi. Xəstəxanaların yükü xeyli artıb və nəticədə tibbi oksigen məsələsi kəskinləşib. Bu gün biz onu istehsal etmək üçün zavod tikirik, lakin biz COVID-19 ilə mübarizədə çox zəruri olan maddə əldə etməyin müxtəlif yollarını axtarırıq. Bu yollardan biri oksigenin xaricdən, o cümlədən Azərbaycandan verilməsi idi.

2021-ci ildə biz azərbaycanlı tərəfdaşlarla 1000 ton tibbi oksigenin tədarükünə dair müqavilə imzalamışıq. Ötən il dekabrın sonunda rayona 110 tonluq ilk partiya daxil olub. Biz bu işi davam etdiririk.

***- Stavropol diyarında indi investorların cəlb edilməsi ilə ərazilərin inkişafı fəal şəkildə aparılır. Azərbaycanın hansısa layihəyə sərmayədar kimi cəlb edilməsi planları varmı?***

- Bizim Azərbaycanla əməkdaşlığımızın uzun tarixi var. Qarşıda isə əminəm ki, qarşılıqlı əlaqənin yeni üfüqləri var.

Stavropol Rusiyanın çörək səbətidir, lakin biz təkcə xammal istehsalı ilə məşğul olmaq istəmirik. Strateji vəzifə kənd təsərrüfatı məhsullarının dərin emalının inkişaf etdirilməsi, yüksək keyfiyyətli və müasir ərzaq məhsullarının istehsalıdır. Bu sahədə Stavropol diyarı azərbaycanlı investorlara bir sıra layihələr təklif etməyə hazırdır- buğdanın qlüten, lizin və digər komponentlərinin dərindən emal edilməsi. Qarğıdalının dərindən emalı üçün investisiya təşəbbüsləri var.

Turizmin inkişafı perspektivli olaraq qalır. Sanatoriyaların, görməli yerlərin tikintisi- məsələn, əyləncə parkları- bu cür inkişaflar var. Kurort sənayesində investorlarla dialoqu inkişaf etdirməyə hazırıq.

Müsahibə aldı - Tatyana Novikova

***Tərcümə etdi***
***- Elçin Bayramlı***

Son səhifə
Səs
16 fevral 2022-ci il

# Abramoviç bir gündə 778 milyon avro itirdi!



**"Çelsi"nin sahibi, rusiyalı milyarder Roman Abramoviç Ukraynadakı vəziyyətə görə bir gündə təxminən 778 milyon avro itirib. Bu barədə "The Sun" nəşri məlumat yayıb. Xəbərdə deyilir ki, London birjasında "Evraz" polad qrupunun səhmləri 29 faiz ucuzlaşıb. İnvestorlar Rusiya şirkətlərinə qarşı mümkün sanksiyalardan qorxurlar.**

Abramoviç 2003-cü ildən "Çelsi"nin sahibidir. Daha əvvəl bir sıra ölkələrin öz vətəndaşlarına təhlükəsizliklə əlaqədar Ukraynanı təcili tərk etməyi düşündüklərinə dair xəbərlər yayılıb.

# Smartfon və kompyuterləri virusdan necə qorumaq lazımdır?

"Virus kompyuterin işində xətalara səbəb ola bilən ziyanverici proqramdır. Kompyuterin virusa yoluxması adətən etibarsız mənbələrdən (fləş daşıyıcılardan, reklam xarakterli saytlardan və s.) istifadə edən zaman baş verir". Bu sözləri SİA-ya açıqlamasında informatika müəllimi Rəşad Rəsulov bildirib.



Onun sözlərinə görə, internetdən endirilmiş və daxilində virus olan proqramı işə salmamaq tövsiyə olunur: "Bu proqramları əvvəlcədən antivirus proqramları ilə yoxlamaq lazımdır.

Proqramı CD diskdən quraşdırmaq daha etibarlıdır. Virusun olub-olmamasını yoxlamaq üçün diski əvvəlcədən antivirus proqramının köməyilə yoxlamaq olar. Ümumiyyətlə, antivirus proqramlarından istifadə etmək tövsiyyə olunur. Əldə olunan faylları antivirus vasitəsilə skan etmək və təhlükəsiz olduğunu yoxlamaq lazımdır".

*Səbinə Hüseynli*

# Azərbaycanlı gimnast "Avropada ilin ən yaxşısı" adına namizəd olub



Böyük Britaniyada yaşayan azərbaycanlı idman gimnastı Cesika Qədirova Avropada 2021-ci ilin ən yaxşısı adına namizəd olub. SİA-nın verdiyi məlumata görə, Avropa Gimnastikasının rəsmi saytına istinadən məlumatına görə, 18 yaşlı idmançı mükafat uğrunda 4 nəfərlə mübarizə aparır.

Siyahıda onunla yanaşı, belçikalı Nina Derval, italiyalı Vanessa Ferrari, rusiyalı Angelina Melnikova və isveçrəli Culiya Ştaynqruber də yer alıb. Qədirova bugünə olan göstəriciyə əsasən, 15 faiz səslə 3-cü pillədə qərarlaşıb.

# Yaponiyada uçan taksilər çoxalır...

Yaponiyanın aparıcı aviaşirkəti All Nippon Airways (ANA) çərşənbə axşamı dünyanın ən böyük avtomobil istehsalçısı "Toyota Motor" ilə əlaqəli Amerika şirkəti "Joby Aviation" ilə birlikdə uçan taksinin inkişafına sərmayə qoymaq qərarına gəlib. SİA xəbər verir ki, bu barədə TASS informasiya agentliyi məlumat yayıb.

Qeyd edilir ki, "Joby Aviation" helikopter və kiçik təyyarənin imkanlarını birləşdirən beş yerlik elektrik uçan taksi hazırlayır. Onun maksimal sürəti 320 km/saat, uçuş məsafəsi təqribən 240 kilometrdir. Yaponiyanın böyük şəhəri Osakanın əsas stansiyası ilə onun yaxınlığında yerləşən beynəlxalq hava limanı arasındakı məsafəni uçan taksi ilə 15 dəqiqəyə qət etmək olar. Avtomobil ilə bu, təxminən bir saata yaxın vaxt deməkdir. ANA uçan taksilərin naviqasiya sistemləri, onların uçuş-enmə zolaqları üçün avadanlıq və s. məsələləri ilə məşğul olmaq niyyətindədir.

# Yuxular psixologiyamıza necə təsir edir?

**PSİXOLOQ AÇIQLADI**

"Yuxu hər bir insanın təməl ehtiyaclarından biridir və bu proses üçün insan yetəri qədər vaxt ayırır. İnsan həyatının təqribən 3/1-ni yuxuda keçirir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının doktorantı, Psixologiya Elmi-Tədqiqat İnstitutunun əməkdaşı, psixoloq Əli Xəlilov bildirib. Onun sözlərin görə, bəzi insanlar hər zaman, bəziləri çox az, bəziləri isə heç vaxt yuxu görmədiklərini qeyd edirlər: "Lakin aparılan tədqiqatlar və müşahidələr göstərir ki, hər bir şəxs bir dəfə belə olsa yuxu görür. Bəs biz nə zaman yuxu görürük? Qeyd edim ki, 2 növ yuxu var. Onlardan biri cəld yuxu, digəri isə ləng yuxudur. Adətən, yuxular cəld yuxu fazasında görülür.

Yuxular bədənimizin, beynimizin bizə şüuraltı ötürdüyü siqnallardır. Fantaziyaları olan insanlar daha sıx yuxular görürlər. Çox vaxt insanlar yuxuda uçurumdan düşürlər, hansısa bir boşluğa düşürlər. Bu, onu göstərir ki, həmin insanlar real həyatda özünü rahat hiss etmirlər. Bəzən özünü əlacsız hiss etdiyinə görə tez-tez bu cür yuxular görürlər. Yaxud da tez-tez yuxuda qaçdıqlarını görürlər. Real həyatda problemlərimizi görməzdən gəlmək bizim üçün ən asan yoldur. Amma şüuraltımız siqnallar ötürür ki, problemlərdən qaçmaq çıxış yolu deyil. Onun üstünə düşüb həll etmək lazımdır. Bəzən insanlar yuxuda uçduğunu görürlər. Bu, əslində, beynimizin bizə ötürdüyü müsbət siqnallardır. Çox vaxt yuxuda imtahan verdiklərini görürlər. Bu, onu göstərir ki, hal-hazırda insan öz fikirlərindən, bacarığından, olduğu yerdən şübhə duyur. Gələcək və keçmiş haqqında da çox yuxular görülür. Bunlar da insanın tez-tez düşündüyü problemlərdən qaynaqlanır. Çox vaxt kabuslar görürlər ki, bu da gündəlik yaşadıqları streslərdən qaynaqlanır.

Bəs yuxular bizə necə təsir edir? Əlbəttə ki, gözəl yuxular insanı xoş aura verir və bu yuxular tez bir zamanda unudulur. Amma neqatif yuxular insanı daha çox narahat edir, gec unudulur. Həmişə fikirləşirlər ki, görəsən, bu yuxunun mənası nədir? Sonra bu yuxunu araşdırmağa başlayırlar.

Burada bir şəxsində adını çəkmək istəyərdim ki, bu, Ziqmund Freyddir. Məhz o yuxuları öz psixoterapevtik işində istifadə etməyə başlayıb və o vurğulayırdı ki, heç kəsin psixologiyası yüksək gərginliklərə dözmür. O, çalışırdı ki, bu problemləri həmin şəxsdən müxtəlif üsullarla, yəni şüuraltı yolla, qorxulu və ya fantastik yuxular görməklə aradan qaldırsın. Bunun üçün ən ideal variant elə yuxulardır. Məsələn, bir xanım dieta saxlayır və hansı qidaları qəbul edib-etməməli olduğunu bilir. Amma qəbul etməməli olduğu bir qidanı yemək istəyir. Bu istəyini yuxuda görərək azaldırlar. Fantaziya formasına ötürülən yuxular, çox vaxt hansısa travmatik hadisələr olandan sonra görülür və çalışılır o yol ilə azalsın ki, insana təsiri də çox olmasın. Mənfi və yaxşı yuxuları hər kəs görə bilər. Bəzən insanlar mənfi yuxuların təsiri altında qalırlar. Yuxularını internetdə araşdırırlar və elmi yanaşmalar olmayada ən pis nəticəni yadda saxlayırlar. Onun təsiri ilə qalıb, uzun müddət özlərini nələrdənsə təcrid edirlər. Mənfi yuxuların gerçəkləşəcəyindən qorxduqları üçün günlərlə, aylarla özlərini evə bağlayırlar. Belə yuxular insanın həyat tərzinə və əlbəttə ki, psixologiyasına da çox böyük təsir göstərir.

Qeyd etdiyim kimi, yuxular həyatımızda baş verən istər neqatif, istərsə də müsbət hadisələrə reaksiyadır. Beynimiz bu yollarla bizə siqnallar ötürməyə çalışırlar. Bunlardan əlavə yuxusuzluq da insan psixologiyası üçün zərərlidir. Yuxu rejimi psixologiyamızın əsas hissəsidir. Aparılan tədqiqatlar nəticəsində aydın olur ki, bir insan günlərlə yuxusuz qaldıqda həm psixoloji, həm də fizioloji cəhətdən çox böyük problemlərlə qarşılaşır".

*Abutel İlhamqızı*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**